www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30 aprel-1may 2016-cı il Şənbə № 93 (6414) Qiymәti 60 qәpik

**Xəbər**

## Bakıda iş adamı insanları qul kimi işlədirmiş...

yazısı səh.2-də

**Gündəm**

### "Ermәni kimdir ki, biz ondan qorxub, harasa gedәk"



Reportyorlarımız cəbhə xəttindən yazır; düşmən dinc əhalini bombalamaqda davam edir

yazısı səh.12-də

### Qərbin atəşkəsi təmin etməyə niyə gücü çatmır...

yazısı səh.5-də

### Deputatlar Azərbaycanı Ermənistana ultimatum verməyə çağırdılar

yazısı səh.6-da

*Vaqif Dərgahlı:*

### "Məqsədimiz düşmənin atəş nöqtələrinə adekvat cavab zərbələri endirməkdən ibarətdir"

yazısı səh.3-də

### Ermənilər azərbaycanlı deputatın evini dağıtdılar

yazısı səh.4-də

### Neftin qiyməti 50 dollara yaxınlaşır

yazısı səh.2-də

### Xədicə İsmayılı müdafiə edən Amal Kluni barədə bilinməyənlər

yazısı səh.11-də

### Tacikistanda rus familiyaları rəsmən qadağan edildi

yazısı səh.13-də

*Ermənistan parlamentinin vitse-spikeri:*

### "O torpaqlar bizim deyil!"

yazısı səh.12-də

### Sabah dünya solçuları bayram edəcək, Azərbaycan isə...

yazısı səh.11-də

### Sabiq naziri yenidən istintaqa aparıb döydülər

yazısı səh.10-da

## Blits-hərbi zəfərdən qəti qələbəyə doğru

# HƏLL MODELİNİ AZƏRBAYCAN ƏSGƏRİ DEYƏCƏK! - 4 APREL SAVAŞININ ƏSAS YEKUNU

"Lavrov sənədi"nin mahiyyəti üzə çıxır - oyun da, qarmaq da Azərbaycan üçün imiş; cəbhədə sarsıdıcı zərbə almış düşmən tərəfin öz şərtlərini sərtləşdirməsinin və sülhü atəşə tutmasının arxasındakı ilginc hədəf; Elmar Məmmədyarov "sirr pərdəsi"ni qaldırdı...



yazısı səh.5-də

## Tağı Əhmədovu 3 milyon ziyana salan şok video

"Akif Çovdarovun əlində sabiq metropoliten rəhbərini bitirəcək kompromat olub"

yazısı səh.3-də



### İlqar Məmmədov həbsdə saxlanıldı

yazısı səh.3-də



*Emil Mustafayev:*

### "Minval.az-dan ayrılmalı olsam, mətbuatdan gedəcəm"

yazısı səh.7-də



*Ərəstun Oruclu:*

### "Proseslər birmənalı olaraq Azərbaycanın xeyrinə gedir"

yazısı səh. 8 və 9-da

**30 aprel 2016**





# Prezident Ağsuya səfər etdi

## İlham Əliyev: "Azərbaycanda sosial məsələlər uğurla həll olunur"

**Prezident İlham Əliyev aprelin 29-da Ağsu rayonuna səfər edib. APA-nın məlumatına görə, dövlət başçısı Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.**

Sonra prezident Ağsu Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edib. Dövlət başçısına görülən işlər barədə məlumat verən səhiyyə naziri Oqtay Şirəliyev bildirib ki, 160 çarpayılıq Ağsu Rayon Mərkəzi Xəstəxanasının tikintisi 2012-ci ildə başlanıb və 2015-ci ilin sonunda başa çatdırılıb. Xəstəxana 3 hektardan çox ərazidə inşa olunub.

Prezident rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.

"Son illər ölkədə 500 xəstəxana və tibb ocağı tikilib. Bu onu göstərir ki, Azərbaycanda sosial məsələlər uğurla həll olunur". İlham Əliyev bunu Ağsu rayonunda ictimaiyyət nümayəndələri ilə görüşündə deyib. Dövlət başçısı bildirib ki, ölkəmizin qüdrətinin artırılması istiqamətində işlər davam etdirilir: "İndi ənənəvi istehsal sahələrinin inkişafı qarşıda duran əsas vəzifələrdən biridir. Təsadüfi deyil ki, indi Ağsu da daxil olmaqla, ölkədə pambıqçılığın, baramaçılığın inkişafı ilə bağlı kompleks tədbirlər görülür. Ağsunun sosial-iqtisadi inkişafı hər zaman diqqətdə saxlanılır və bu proses davam etdiriləcək".

İlham Əliyev Ağsu rayonuna səfəri çərçivəsində Bakı-Şamaxı-Yevlax avtomobil yolunun Muğanlı-Yevlax mənzilinin 115 kilometrlik hissəsinin yenidənqurmadan sonra açılışında iştirak edib.

**"Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov** dövlət başçısına məlumat verib ki, ölkəmizin regionlarını birləşdirməsi baxımından mühüm əhəmiyyət daşıyan bu yol uzun müddət əsaslı təmir edilmədən istismarda olub. Yolu fərqləndirən cəhət bəzi yerlərdə çətin dağlıq ərazidən keçməsidir. Buna görə yolboyu geniş bərkitmə və torpaq işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan iki hərəkət zolaqlı yolun ümumi uzunluğu 115,15 kilometr, yol yatağının eni 12,5 metr, hərəkət hissəsinin eni isə 7,5 metrdir.

**Dövləti başçısı yolun rəmzi açılışını bildirən lenti kəsib.**

# Dolların mayın ilk iş gününə olan məzənnəsi açıqlanıb

**Azərbaycan Mərkəzi Bankı (AMB) mayın 2-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb. Bankdan Musavat.com-a verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi mayın 2-ə bu günlə müqayisədə dəyişməyərək 1,5072 səviyyəsində müəyyən olunub.**

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Ramil Usubov Göyçayda polis orqanlarının fəaliyyəti ilə bağlı qəbul keçirdi

**Prezident Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri Ramil Usubov aprelin 29-da Göyçay Rayon Polis Şöbəsində polis orqanlarının fəaliyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.**

Daxili işlər nazirliyin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, Tədbirdə Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir, Ağdaş şəhər və rayonlarından qəbul üçün müraciət edən sakinlər iştirak ediblər.



Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyatı Baş İdarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə öz həllini tapıb. Qəbuldan sonra kütləvi informasiya vasitələrində öncədən verilmiş elanlara uyğun olaraq, yuxarıda adları çəkilən şəhər, rayon polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti, həmçinin, "İctimai asayişin qorunmasında vətəndaşların iştirakının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 mart tarixli Fərmanının icrası çərçivəsində mülki işçi vəzifələrinə xidmətə qəbulla bağlı sıra baxışı keçirilib.

**Sıra baxışında həmin şəhər və rayonlarda yaşayan, polisin sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək istəyən 860 nəfər iştirak edib. Onların arasından daha hazırlıqlı olan 71-i polisin, 25 nəfəri Daxili Qoşunların sıralarında xidmətə, 239 gənc isə mülki işçi vəzifələrinə namizəd kimi seçilərək sənədlərinin hazırlanması üçün aidiyyatı baş idarələrin rəhbərlərinə müvafiq göstəriş verilib.**




# Uydurma "DQR" bayrağının "Eurovision"un keçiriləcəyi zala gətirilməsi qadağan olunub

**"Eurovision" beynəlxalq mahnı müsabiqəsinin təşkilatçıları bu ilin bayraq siyasətini açıqlayıblar.**

APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, Avropa Yayımçılar İttifaqı müsabiqənin yarımfinal və finalının keçiriləcəyi zallara gətirilməsi qadağan olunan bayraqların siyahısını açıqlayıb.

Siyahıda İspaniyanın baskların yaşadığı bölgə, Kosovo, Krım, Fələstin və qondarma "Dağlıq Qarabağ Respublikası"nın bayraqları yer alıb.

Qeyd edən ki, "Eurovision-2016" müsabiqəsinin yarımfinal və final mərhələsi mayın əvvəlində İsveçdə keçiriləcək.

# ABŞ Pakistana yardımdan imtina etdi

**ABŞ hökuməti Pakistanın F-16 qırıcıları alması üçün subsidiya ayırmaqdan imtina edib. Axar.az xəbər verir ki, bu barədə informasiyanı BBC telekanalı yayıb.**

Qeyd edək ki, bundan öncəki razılaşmaya əsasən, Pakistan qırıcıların alınması üçün 270 milyon dollar ödəməli idi. Bundan sonra yerdə qalan miqdarı ABŞ silahlı qüvvələri verəcəkdi. Vaşinqtonun bu qərarından sonra Pakistan qırıcılara görə 700 milyon dollardan çox ödəniş etməli olacaq. Ekspertlər rəsmi İslamabadın belə təkliflərlə razılaşmayacağını bildiriblər.

**Fevral ayında ABŞ Pakistana 8 F-16 qırıcısının satılmasına izn verib.**



# Neft qiyməti 50 dollara yaxınlaşır

**Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,40 dollar artaraq 46,43 dollar təşkil edib. "APA-Economics"in məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,05 dollar artaraq 48,19 dollar olub.**

Qeyd edək ki, neftin bahalaşmasına səbəb ABŞ-da hasilatın azalmasıdır. Belə ki, ABŞ-ın Energetika Nazirliyinin açıqladığı statistikaya əsasən, ölkədə gündəlik neft hasilatı 15 min barrel azalaraq 8,94 mln. barrelə çatıb. Bu göstərici dalbadal 7 həftədir azalma nümayiş etdirir.

Yeri gəlmişkən, Brent markalı neft aprelin ayının əvvəlindən 22%, WTI markalı neft isə 21% bahalaşıb. Bu, 2015-ci ilin aprel ayından etibarən ay ərzində rekord artımdır.

# ADPU-nun Qazax və Zaqatala filialları digər universitetlərə verildi

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax və Zaqatala filialları barədə sərəncam imzalayıb. APA-nın məlumatına görə, 2016-cı il iyul ayının 1-dən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qazax filialı Bakı Dövlət Universitetinin Qazax filialı, Zaqatala filialı isə Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı hesab ediləcək.**

Nazirlər Kabinetinə Azərbaycan prezidentinin aktlarının sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb prezidentə təqdim etmək, Nazirlər Kabinetinin normativ hüquqi aktlarının sərəncama uyğunlaşdırılmasını bir ay müddətində təmin etmək, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlamaq və bunun icrası barədə 3 ay müddətində prezidentə məlumat vermək tapşırılıb.

**Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Nazirlər Kabinetinə məlumat verməli, Təhsil Nazirliyi Bakı Dövlət Universitetinin Qazax filialında və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialında 2016-2017-ci tədris ilindən kadr hazırlığı aparılacaq ixtisasların siyahısını müəyyənləşdirməli və tədris prosesinin təşkili üçün zəruri tədbirlərin görülməsini təmin etməli, Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsi isə Bakı Dövlət Universitetinin Qazax filialına və Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialına 2016-2017-ci tədris ili üçün qəbul imtahanlarının keçirilməsini təmin etməlidir.**

# İş adamı insanları qul kimi işlədirmiş...

**DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən əməliyyat-axtarış tədbirləri keçirilib.**

Lent.az xəbər verir ki, aprelin 28-də keçirilən əməliyyat nəticəsində Azərbaycan Respublikası vətəndaşı, 1947-ci il təvəllüdlü Bakı şəhər sakini Rzayev Tofiq İbrahim oğlunun bir qrup şəxslə cinayət əlaqəsinə girərək Bakı şəhəri, Xəzər rayonunda yerləşən özünəməxsus heyvandarlıq sahəsində Azərbaycan Respublikası vətəndaşlarını məcburi əməyə məruz qoyması faktı müəyyən edilib.

Faktla bağlı araşdırma aparılır.





# ADNA terrorundun 7 il ötdü

**2009-cu il aprelin 30-da ADNA-da baş verən terrordan 7 il ötür. Akademiyanın Bakı şəhəri, Dilarə Əliyeva küçəsi, 227 saylı ünvanda yerləşən ikinci korpusuna daxil olan naməlum şəxsin inzibati binanın birinci mərtəbəsindən altıncı mərtəbəsinədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər ölüb, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Hadisəni törədən şəxs sonra özünü vurub. Onun Gürcüstan vətəndaşı, 1980-ci il təvəllüdlü Qədirov Fərda Əsəd oğlu olduğu müəyyən edilib.**

Baş vermiş hadisə ilə bağlı Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin əməkdaşlarından ibarət əməliyyat-istintaq qrupu yaradılıb. Həyata keçirilən tədbirlər nəticəsində F.Qədirovla əlaqəli şəxslərin bir çoxu cinayət məsuliyyətinə cəlb olunub.

Baş verən kütləvi qətlin sifarişçisinin erməni əsilli Gürcüstan vətəndaşı Mardun Qumaşyan olduğu müəyyənləşib. Cinayət işinin materiallarına görə, Neft Akademiyasında terror aktının törədilməsini sifariş verən Qumaşyan Mardun Qriqoryeviç 6 mart 1951-ci ildə Gürcüstanın Marneuli rayonunun Şulaver kəndində anadan olub.

Mardun Qumaşyanın barəsində İnterpol xətti ilə beynəlxalq axtarış elan olunub. F.Qədirovun ölümü ilə əlaqədar cinayət işinin onun barəsində olan hissəsinə xitam verilib. Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin 10 avqust 2010-cu il tarixli hökmü ilə iş üzrə təqsirləndirilənlər - Nadir Əliyev, Cavidan Amirov, Nəcəf Süleymanov ömürlük, Ariz Qabulov isə 11 il müddətinə azadlıqdan məhrum edilib.

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016



# İlqar Məmmədov həbsdə qaldı

## Məhkəmə REAL sədrinin apelyasiya şikayətini təmin etmədi; hökm qüvvədə saxlanıldı

**Aprelin 29-da Şəki Apelyasiya Məhkəməsində REAL sədri İlqar Məmmədov və Müsavat başqanının müavini Tofiq Yaqublubun apelyasiya şikayətinə baxıldı. Prosesdə çoxsaylı media və vətəndaş cəmiyyətinin nümayəndələri, eləcə də, siyasi partiyaların bölgələrdəki üzvləri iştirak edirdilər.**

Məhkəmə saat 17:00-da qərarın oxunması ilə başladı. Saat yarım oxunan qərardan sonra hakim Hümmət Səlimov birinci instansiya qərarının qüvvədə saxlanıldığını elan etdi. Qərar zalda etirazla qarşılandı. REAL tərəfdarları hakimə öz təpkilərini göstərdilər. Məhkəmə nəzarətçiləri iştirakçıları zorla zaldan çıxardı.

Məhkəmədən sonra **İlqar Məmmədovun vəkili Fuad Ağayev** mediaya açıqlama verdi: "Məhkəmə bu qədər uzandıqdan sonra Apelyasiya Məhkəməsi ədalətli qərar qəbul etmək iqtidarında olmasa da, gözləyirdik ki, 3 il 3 ay həbsdə qalmış İlqar Məmmədov barəsində qərarı yüngülləşdirəcək, yaxud onu şərti edəcək. Əfsuslar olsun ki, bu baş vermədi. Birinci dəfədir ki, onunla rastlaşdım, Regional Apelyasiya Məhkəməsi öz qərarı ilə Avropa Məhkəməsinin də qərarını təftiş etdi. Bu bir daha onu göstərir ki, Azərbaycanda ədalət mühakiməsi anlayışı özünəməxsus şəkildə qəbul edilir. Bu orqanın nümayəndələri vəzifələrinin öhdəsindən gəlmir və bu sahədə ciddi islahatlara ehtiyac var. O cümlədən, kadr islahatlarına. Qərardan Ali Məhkəməyə şikayət verəcəyik. Avropa Məhkəməsinə çoxdan şikayət göndərilib. Keçən iclasda iştirak edənlər gördülər ki, biz videomaterialları ortaya qoyduq. Buradan görünürdü ki, guya camaat adı çəkilən xəstəxana yoluna gəlirmiş. Videodan göründü ki, Tofiq Yaqublu və İlqar Məmmədov orada olduğu müddətdə kimsə olmayıb. Nəinki kütlə gəlməyib, daşqalaq söhbəti belə olmayıb. Nizami Ələkbərovun həmin vaxt İlqar Məmmədov və Tofiq Yaqublunun olduğu Təhsil Şöbəsinin qabağındakı müsahibədə sakitliyin olduğunu deyir. Saat 16:00 radələrində. Kamera göstərir ki, ora boşdur. Obyektiv sübutlarımız var idi. Polislərin ziddiyyətli ifadələr verdiklərini hər kəs gördü. Özləri bir-birilərini inkar edirdilər. Müdafiə tərəfinin şahidləri ifadələrində polislərin ifadələrini darmadağın etdilər. Hər kəs gördü ki, video materialların adı belə oxunan qərarda keçmədi".




**Məhkəmədə təqsirləndirilən şəxs qismində iştirak edən Müsavat başqanının müavini Tofiq Yaqublu da proses barədə danışdı:** "Bu boyda təmtəraqlı məhkəmə binası tikilib. Onun içərisində ədalət yoxdursa, bu bina nəyimə gərəkdir? Burada bir kərpicin dəyəri qədər ədalət yoxdur. Yalan, yalan, yenə də yalan. Bu işlə bağlı son sözüm var. Sosial şəbəkələr və mətbuatda yayılıb. Orada konkret sübutlar var. Heç bir günahı olmayan insanları məhkum edirlər. Hakimiyyətin qərəzi burada hakim rolunda çıxış etdi. Sözsüz ki, haqq-ədalət yerini tutacaq".

❑ **Cavanşir ABBASLI**

# "Tapşırılıb ki, işğal altındakı ərazilərdə dinc əhaliyə atəş açılmasın"

## Vaqif Dərgahlı: "Bizim məqsədimiz düşmənin atəş nöqtələrinə adekvat cavab zərbələri endirməkdən ibarətdir"



Vaqif Dərgahlı

**"Düşmənin gecə saatlarında atəşkəsi pozmasının əsas məqsədi yaşayış məntəqələrini hədəfə almaqdır". APA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Müdafiə Nazirliyinin mətbuat katibi Vaqif Dərgahlı bildirib.**

O qeyd edib ki, aprelin 26-dan başlayaraq Ermənistan silahlı bölmələri sırf mülki əhali arasında itki olsun deyə, gecə saatlarında atəşkəsi kobud surətdə pozurlar: "Bu bir daha erməni barbarlığını nümayiş etdirən faktdır. Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən ermənilərin bu cür aqressiv addımlarının qarşısının alınması üçün adekvat tədbirlərin görülməsi məqsədilə təmas xəttinə yaxın olan bölmələrimizə birmənalı şəkildə tapşırıq verilib ki, düşmənin atəş nöqtələri susdurulsun. Həmçinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən tapşırıq verilib ki, Azərbaycan silahlı bölmələri işğal altında olan ərazilərdə məskunlaşan dinc əhaliyə atəş açılmasın. Bizim məqsədimiz düşmənin atəş nöqtələrinə adekvat cavab zərbələri endirməkdən ibarətdir. Bu da düşmənin atəşini susdurmaq məqsədi daşıyır. Nazirliyin rəhbərliyinin tapşırığına uyğun olaraq silahlı bölmələrimiz düşmənə layiqli cavab zərbələri endirib".

**V.Dərgahlı həmçinin ermənilərin qadağan olunmuş silahlardan istifadə edilməsi məsələsində də toxunub. O qeyd edib ki, belə faktlar var və ictimaiyyətə bu barədə məlumat verilib:** "Hazırda həmin qadağan olunmuş silahların mənşəyi araşdırılır. Ermənilərin bu silahlardan istifadə etməsi beynəlxalq konvensiyalara ziddir, ermənilər əhali arasında çoxsaylı itki olması üçün bütün vasitələrdən istifadə etməyə çalışır".

V.Dərgahlı əlavə edib ki, son günlər ərzində Azərbaycan ordusu heç bir itki verməyib, hər hansı hərbi texnika sıradan çıxarılmayıb.

Qeyd edək ki, bu gün Azərbaycan Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə ölkədə akkreditasiyadan keçmiş xarici ölkələrin media orqanlarının təmsilçiləri və yerli KİV nümayəndələri (ümumilikdə 45 media nümayəndəsi) XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin müşayiəti ilə cəbhə bölgəsinə gediblər.

Media təmsilçiləri öncə Bərdə rayonunda olub, Bərdə Diaqnostika Mərkəzində müalicə olunan, ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaralanan mülki vətəndaşlara baş çəkiblər.

Daha sonra Ağdam rayonuna gedən jurnalistlər ermənilərin atəşi nəticəsində həlak olan Çəmənli kənd sakinləri Mustafayev Famil Əli oğlu və Hüseynov Əli Müseyib oğlunun yaxınları ilə görüşüb, xəsarət alaraq Ağdam Mərkəzi Rayon Xəstəxanasına yerləşdirilən Çəmənli kənd sakinlərinə baş çəkiblər.

Cəbhə bölgəsində yola düşən xarici media nümayəndələri arasında BBC, "Reuters", "Bloomberg", "France-Presse", "RİA Novosti", "Anadolu", TRT, İHA, "Cihan", "Rossiya 24" kanalının əməkdaşları, israilli media eksperti Arye Qut və s. var. Moldovanın keçmiş ombudsmanı Aurelia Qriqoriu da heyətdə təmsil olunub.

# Tağı Əhmədovu 3 milyon ziyana salan şok video

## "Akif Çovdarovun əlində sabiq metropoliten rəhbərini bitirəcək kompromat olub"

**Bu günlərdə mətbuatda Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov barədə sensasion sayıla biləcək bir məlumat yayıldı. Həmin məlumatda bildirilirdi ki, ləğv edilmiş MTN-nin baş idarə rəisi olmuş Akif Çovdarov T.Əhmədovdan 3 milyon xərac alıb.**



Tağı Əhmədov



Akif Çovdarov

Xəbərdə xəracın alınmasına nəyin səbəb olduğu qeyd edilmirdi. Düzdür, bəzi gümanlar vardı, amma dəqiq fakt yox idi. Heç jurnalistlər də bu haqda çox dərinə getmədilər. Çünki Eldar Mahmudov vəzifədən çıxarıldıqdan sonra MTN çetesinin bir çox əməllərinin üstü açıldı. Məlum oldu ki, E.Mahmudova yaxın bir sıra MTN zabiti məmurlardan və iş adamlarından zorla pul alırmış. Bu siyahıya nazirlər, nazir müavinləri, komitə sədrləri, bizneslə məşğul olan imkanlı şəxslər daxil olub. MTN çetesinin zorakılığına məruz qalaraq onlara pul vermək məcburiyyətində qalan xeyli iş adamı bu barədə mətbuata danışıblar. Məmurlar isə susurlar. Hətta sabiq vəzifə sahibləri də bu mövzuda sükut edirlər.

Tağı Əhmədov da barəsində yayılan məlum xəbərə heç bir reaksiya bildirmədi. Bundan öncə onun bankda batan 8 milyon xəbərinə isə dolayısı ilə reaksiya vermişdi. "Yeni Müsavat"ın redaksiyasına ismarış yollamışdı ki, onun bankda 8 milyonu batmayıb. Ola bilər, məbləğ bir qədər az olduğundan "mənim o bankda 8 milyonum batmayıb" deyib sabiq metropoliten rəisi. Bəlkə 5 milyonu batıb, ya da, məsələn, 4 milyon 765 mini...

Amma T.Əhmədov barəsində yayılan son xəbərə - A.Çovdarova 3 milyon ödəməsi haqda deyilənlərə tükünü belə tərpətmədi.

Etibarlılığına və mötəbərliyinə şübhə etmədiyimiz bir mənbə bu günlərdə redaksiyamıza maraqlı məlumat verib. Mənbənin iddiasına görə, ortada Tağı Əhmədovu 3 milyon ziyana salan gizli çəkilən video olub. Bildirilir ki, MTN çetesinin gizli çəkilişlər "ustadı" Akif Çovdarovun əlində Tağı Əhmədovu bitirəcək kompromat varmış. Çovdarov həmin kompromatı əvvəlcə 5 milyona qiymətləndirib. Danışıqlar nəticəsində məbləğ 3 milyona endirilib. Bu danışıqlarda T.Əhmədovun mövqeyini ifadə edən, onu 2 milyon izafi xərcdən qurtaran bir başqa məmurun iştirakı haqda da məlumatlar dolaşır. Bəzi dəqiqləşdirmələrdən sonra o məmurun adını yazmağa çalışacağıq. Qaynağımız deyir ki, məbləğ ödənilib və kompromat oda davamlı seyflərdən birinə qoyulub...

**T.Əhmədov bu mövzuda danışmaq istəsə, onu dinləməyə, mövqeyini dərc etməyə hazırıq.**

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016





# "Düşmən əsasən dinc sakinləri hədəfə alır"

## Mərmi atəşi altında yaşayan sakinlər; "Hər birimiz türk əsgəriyik və ancaq irəli getməliyik"; Tərtər rayonuna ezam olunmuş reportyorlarımız gördüklərini yazır





**Aprelin 27-dən 28-nə keçən gecə erməni silahlı qüvvələri tərəfindən Tərtər rayonunun yaşayış məntəqələri ağır artilleriya silahlarından atəşə tutulub. Düşmən, atəşkəsi kobud şəkildə pozmaqla yanaşı, adi savaş qaydalarına da əməl etməyərək, əsasən yaşayış məntəqələrini, sakinlərə məxsus obyektləri hədəfə alır. Qeyd etdiyimiz tarixdə düşmənin atəşi nəticəsində Tərtər rayonunda ümumilikdə 58 yaşayış məntəqəsi, 2 orta məktəb, 1 ərzaq dükanına ciddi zərər dəyib.**

Düşmənin atəşi nəticəsində yaşadıqları evləri qəzalı vəziyyətə düşmüş rayon və kənd sakinlərinin bəzilərinin evində olduq. Sakinlər düşmənin təxribatlarına baxmayaraq, bir qarış da olsun torpaqlarından vaz keçməyəcəklərini, yalnız irəli getməyi düşündüklərini söylədilər.

**Rayon sakini Elman Alməmmədov:** "Biz ordumuza və onun gücünə inanırıq. Keçmiş döyüşçüyəm və indi də cəbhəyə gedib, vətənimizi düşmən tapdağından azad etməyə hazıram. Təkcə mən yox, bütün Tərtər rayonunun kişiləri bu fikirdədir. Biz artıq irəliyə getməkdən başqa heç nə düşünmürük. Düşmən anlasın ki, hər birimiz türk əsgəriyik və ancaq irəli getməyi düşünürük".

Tərtər rayonunda düşmən atəşindən ən çox zərər görmüş kənd Hacıqərvənddir. Kənddə bir gecədə 14 ev, 1 mağaza düşmən hədəfinə tuş gəlib. Lakin orada da olduğumuz zaman, sakinlərin yalnız düşməndən qisas almağı düşündüklərini öyrəndik. Düşmən yuxarıda da qeyd etdiyimiz kimi artilleriya silahlarından atəş açıb və bu atəş nəticəsində sakinlərin təkcə evləri deyil, təsərrüfatlarına da ciddi ziyan dəyib.

**Kənd sakini Asif Əliyev Hüseyn oğlu**nun bankdan kredit götürərək aldığı 3 inəyindən biri ölüb, digər ikisini isə qəlpə ölümcül hala salıb: "Düşmənin artilleriya atəşi nəticəsində təkcə mal-qaram deyil, əkin sahəm, yaşadığım ev yararsız vəziyyətə düşüb. Gecə saat 3 radələrində məni küçəyə çağırdılar. Elə həmin vaxt da mərmi düşdü. Əgər küçəyə çıxmasaydım, mən də həyatımı itirərdim".

Evi qəzalı vəziyyətə düşən **kəndin digər sakini Əziz Alişanov**un sözlərinə görə, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları, rayon icra hakimiyyətinin nümayəndələri operativ şəkildə işləyərək, onlara dəymiş zərərin miqdarını hesablayıb, eyni zamanda atəş nəticəsində zərər dəymiş kommunal xətləri bərpa ediblər.

Yuxarıda da qeyd etdiyimiz kimi düşmən rayonun iki orta məktəbinin binasını da hədəfə alıb. Ərazisinə mərmi düşün **6 saylı orta məktəbin direktoru Azad Abbasov** söylədi ki, düşmənin atəşi nəticəsində məktəbə çox ciddi ziyan dəyib: "2 sinif, 1 kompüter otağı tamamilə dağılıb. Məktəbin bütün şüşələri qırılıb. Əraziyə düşən iki mərminin biri məktəbin həyətinə, digəri isə arxasındakı yaşayış evinə tuş gəlib. Ümumilikdə təhsil ocağımıza çox ciddi ziyan dəyib".



Tərtərdə mövcud vəziyyətlə əlaqədar **rayon icra hakimiyyətində də olub, icra başçısı Müstəqim Məmmədov**un da fikirlərini aldıq. M.Məmmədov musavat.com-a bildirdi ki, bir çox saytlar yalan məlumat yayaraq, guya sakinlərin yaşayış yerlərini tərk etdiklərini yazırlar:

"Lakin sizi əmin edirəm ki, bu belə deyil. Tərtər sakinləri yalnız irəli, düşmənin üzərinə getməyi düşünürlər. 27 aprel tarixində gecə saat 23:00-dan başlayaraq, 28 aprel gecə saat 4 radələrinə qədər təmas xəttində yerləşən Tərtər şəhəri və onun 11 yaşayış məntəqəsi, düşmənin artilleriya zərbəsinə məruz qalıb. Düşmən iriçaplı silahlardan, "Qrad" qurğusundan və toplardan yaşayış məntəqələrini vurmaqla məşğuldur. Bu isə göstərir ki, onların məqsədi əhali arasında çaşqınlıq yaratmaqdır. Bütün bunlara baxmayaraq, əhalimiz yerindədir. Kəndlərdə kommunal xətlər dağıdılsa da, tezliklə tərəfimizdən bərpa olundu. Hazırda əhalinin həm elektrik, həm də qaz xətlərində heç bir problem yoxdur".

**İcra başçısı əlavə edib ki, rayonda olan bütün 2 və 5 mərtəbəli ictimai yaşayış binalarının zirzəmiləri təmizlənib və sığınacaq halına gətirilib:** "Lazım olduqda oradan da istifadə edə bilərik. Ümumilikdə Tərtər rayonunda içməli su və kanalizasiya sisteminin layihəsi davam etdirilir. Kəndlərimizdə əhali kənd təsərrüfatı işləri ilə məşğuldur. Bir daha qeyd edirəm ki, bütün sakinlərimiz, icra nümayəndələri öz yerlərindədirlər".



Tərtər rayonuna bu gün Müdafiə Nazirliyinin əməkdaşları da gəlmişdilər. **Nazirliyin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı** musavat.com-a deyib ki, ermənilərin bir qayda olaraq, yaşayış məntəqələrimizi vurması dinc əhaliyə təhlükə yaradır: "Hərbiçi, mülki vətəndaşlarla deyil, hərbiçi ilə müharibə aparmalıdır. Ermənilər isə bilincli və məqsədli şəkildə Ağdamın, Tərtərin dinc sakinlərinin yaşadıqları ərazilərə, məktəblərə atırlar. Bunun adı erməni barbalığıdır. Bizim atdığımız hər bir mərmi yüksək dəqiqliyə malik silahlardan atılır. Ermənilər haradan atəş açırlarsa, bizim hərbi qulluqçularımız da o istiqamətə cavab atəşi açırlar. Ermənilər isə bir başa yaşayış məntəqələrini hədəfə alırlar".

Belə olan təqdirdə, onları qorumaq məqsədi ilə yerli sakinlərin köçürülməsi zərurəti yaranırmı? Müdafiə Nazirliyinin sözçüsü musavat.com-un sualına bu cavabı verib:



"Ağdam və Tərtər əhalisində bir halın şahidi oldum ki, insanlar ancaq irəli getmək haqqında, düşməni məhv etmək barədə düşünürlər. Aprelin əvvəllərində bizim əhalinin, xüsusilə gənclərin nə qədər silahlı qüvvələrimizə kömək etməyə hazır olduqlarını gördük. Biz onların qarşısını alırdıq ki, ehtiyac yoxdur. Yəni Ali Baş komandanımızın Silahlı Qüvvələrimizə göstərdiyi diqqət və qayğını hər kəs görür. Biz ordumuza yardım etmək istəyən əhalimizə də öz minnətdarlığımızı bildiririk. İnsanlarımız ön xətdə olan hərbi qulluqçularımızla hər şeylərini paylaşmağa, o cümlədən qan bankına qan verməyə belə hazırdırlar. Bütün bunların hamısı bizə mənəvi dəstəkdir. Mənəvi dəstək isə bizim üçün ən əsas haldır. 18-20 yaşındakı əsgərlərimizin sadəcə olaraq gözlərini görmək lazımdır, o gözlərdən ancaq düşməni bu torpaqlardan qovmaq istəyi oxunur. Düşmənin nə söyləməsindən asılı olmayaraq, işğaldan azad olunan bütün məntəqələr, düşmənin hər bir hərəkəti tərəfimizdən nəzarətdə saxlanılır. Lazım olan məqamda da gələn zərblərə cavab zərbəsi endiririk".



❑ **Əli RAİS,**
**Məhəmməd TÜRKMƏN,**
**Tərtər**





# Ermənilər azərbaycanlı deputatın evini dağıtdılar

**"Ermənilərin raketlərdən açdığı atəş nəticəsində Ağdamın Eloğlu kəndindəki ana evimiz, yəni anamın anasının-nənəmin evi dağıdılıb, yararsız hala salınıb". Bunu modern.az saytına 83 saylı Ağcabədi-Füzuli seçki dairəsinin deputatı Aqil Abbas deyib. Aqil Abbasın sözlərinə görə, nənə evini özü təmir etdirmək istəyir:**

"Dövlət ilk növbədə daha çox ehtiyacı olan insanların evlərini təmir etdirsin. Çalışacam ki, nənə evimizi təmir etdirim. Təbii ki, belə evləri dövlət təmir edir. Evə gedib baxanda dövlət rəsmiləri də mənimlə idilər. Bizim həyətə gedəndə Ağcabədinin və Ağdamın icra basçışına dedim ki, "mənim evimi təmir etdirmək vacib deyil, siz ilk növbədə daha çox ehtiyacı olan, başqa sakinlərin dağılmış evlərini təmir etdirin. Dedim ki, evimizi özüm təmir etdirərəm".

**Deputat deyib ki, ötən gün şiddətli atışmalar nəticəsində Ağdamın Eloğlu, Çəmənli, Əfətli, Zəngişalı, Mahruzlu, Əhmədağalı kəndlərinə düşmən raket və qradlardan, iri çaplı silahlardan atəş açıb. Bir çox evləri yararsız hala düşüb:** "Sarıcalı kəndində orta məktəbi raketlərdən, qradlardan elə günə salıblar ki, külünü göyə sovurublar. Həmin saatlarda böyük xoşbəxtlikdən orada dərs olmayıb. Əgər Allah eləməsin, həmin gün o məktəbdə dərs olsaydı, 1 nəfər də şagird və ya müəllim sağ çıxa bilməzdi. Ağcabədinin Qaraxanlı kəndinə sırağa gün 50 raket düşüb. Bayat, Hacılar kəndləri erməni səngərinin burnunun ucundadır. Ermənilərin atəş nöqtəsindən Qaraxanlı və Bayat kəndlərinə 15-20 kilometr məsafə var. İndi görün ki, ermənilər hansı növ raketlərdən atəş açıblar ki, həmin raketlər kəndləri məhv edib". **Aqil Abbasın sözlərinə görə, atılan raketlərdən biri qonşuluqdakı evin düz içinə düşüb:** "Bir raket də həyətin artırma hissəsinə düşüb. Xoşbəxtlikdən həmin an divarlar aşmamışdı evi saxlayıb. İnsanlar hamısı həyətdə olub və divarlar da qəlpələrdən onları qoruyub. Ağdamın Hacılar kəndində Heydər piri var. Seyid ocağı olan o kəndə 13 qrad mərmisi düşüb və 7-si partlamayıb".

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016

# Blits-hərbi zəfərdən qəti qələbəyə doğru



# Həll modelini Azərbaycan əsgəri deyəcək! - 4 aprel savaşının əsas yekunu

## "Lavrov sənədi"nin mahiyyəti üzə çıxır - oyun da, qarmaq da Azərbaycan üçün imiş; cəbhədə sarsıdıcı zərbə almış düşmən tərəfin öz şərtlərini sərtləşdirməsinin və sülhü atəşə tutmasının arxasındakı ilginc hədəf; Elmar Məmmədyarov "sirr pərdəsi"ni qaldırdı...

**Azərbaycan ordusundan layiqli cavab alan düşmən yaşayış məntəqələrimizin intensiv atəşə tutmasını dayandırıb. Ancaq ötən gecə nisbətən sakit keçsə də, yəqin ki, işğalçı tərəf ara-sıra öz mənfur varlığını büruzə verməyə çalışacaq. Amma çətin ki, belə "büruzə vermələr"lə Serj Sərkisyanın kriminal rejimi ölkə daxilində əvvəlki reytinqini bərpa edə bilsin. Azərbaycan ordusu bu reytinqə elə zərbə vurmayıb ki, asanca reanimasiya oluna bilsin.**

Ermənistan rəhbərliyinin çaşqınlığı, ilk baxışda məntiqsiz görünən addımları da ilk növbədə hakimiyyətin xilasına yönəlib. 4 günlük savaşın yaratdığı yeni situasiyanın mühüm özəlliklərindən biri budur. Lakin Sərkisyan rejiminin yumşalmaq və Qarabağ məsələsində daha konstruktiv mövqe tutmaq əvəzinə, Azərbaycana qarşı təzə və absurd şərtlər irəli sürməsi həm də başqa mətləblərdən xəbər verir. Ancaq bu barədə sonra.

**Hələlik onu qeyd edək ki, srağagün Ermənistan prezidenti danışıqlarının bərpası üçün üç şərt irəli sürüb:** "Təmas xəttindəki insidentlərin araşdırılması üçün mexanizmin tətbiqi, ünvanlı bəyanat və Azərbaycanın Dağlıq Qarabağ əhalisinə qarşı yeni təcavüzə və terrora getməyəcəyinə dair təminatı". "Ünvanlı bəyanat" dedikdə Sərkisyan, əlbəttə ki, beynəlxalq birliyin atəşkəs pozuntusuna görə həmişə Azərbaycanı pisləmək istəməsini nəzərdə tutur.

Göründüyü kimi, şərtlərin hər üçü işğalçının Azərbaycan torpaqlarında özünü rahat və təhlükəsiz hiss etməsinə, əvvəlki status-kvonun saxlanmasının təmin olunmasına yönəlib. O status-kvo ki, ermənilərə hələ uzun illər boyu Azərbaycanın bir qarış torpağını da qaytarmadan ərazilərimizdə at oynatmağa imkan verir.

***

Təbii ki, Bakı heç vaxt bu məkrli və absurd şərtləri qəbul edib öz əl-qolunu bağlamaz. Əksinə, BMT qətnamələri imkan verir ki, o, təcavüzkara hər hansı güzəşt tanımasın, heç bir mexanizm-filanı yaxına buraxmadan işğalçını daima narahat eləsin, onu konstruktiv mövqe tutana və işğala son qoyana kimi vaxtaşırı cəzalandırsın - necə ki, bunu 22 illik fasilədən sonra ilk dəfə, 2-5 apreldə elədi.

Ermənistanı ən çox xoflandıran da odur ki, günün birində Azərbaycanın blits-hərbi zəfəri böyük hərb qələbəyə çevrilər və ermənilərin başlarından yekə şərtləri özlərinə qalar. Odur ki, işğal faktı dura-dura Azərbaycan bədnam nəzarət mexanizmləri ilə öz əl-qolunu niyə bağlasın ki? Bakı da neçə vaxtdır onu deyir ki, ermənilər özlərini rahat və təhlükəsiz hiss eləmək, qırılmaq istəmirlərsə, işğalçı qüvvələr Azərbaycandan rədd olub getsinlər. Bundan ədalətli şərt?!

Hələ harasıdır, separatçıların "KQB tulası" ayamasını daşıyan hazırkı başçısı, 2-5 savaşından sonra bərk qorxub rəngi qaçan *(bunu erməni analitiklərindən biri yazmışdı)* Bako Saakyan da şərtlə danışmağa, Sərkisyan kimi köhnə bayatıları oxumağa başlayıb. Torpaqların Azərbaycana qaytarılmayacağını deyən "KQB tulası" görün hansı iştaha düşüb: "Hələlik biz Azərbaycandan Dağlıq Qarabağın müstəqilliyini tanıyacağı ilə bağlı cavab almamışıq. Əgər cavab yenə "yox" olarsa, o zaman aparılan müzakirələr faydasız olacaq. Biz tərəf olaraq danışıqlar prosesinə daxil olmaq istəyirik".

***

Qəti şübhə yox ki, nə Sərkisyan, nə də Saakyan özbaşına danışmır, eyni zamanda Moskvanın adından Bakıya şərt irəli sürürlər. Başqa sözlə, bu şərtlərin arxasından daha çox Rusiyanın iri "çiyinləri" görünür. Bəs şimal qonşumuzun hədəfi nədir bu mərhələdə?

Əslində yeni heç nə. Onu son olaraq Kremlin danışan dillərindən olan, Avrasiya Hərəkatının lideri Aleksandr Duqin srağagün 1 in.am erməni portalına müsahibəsində aydın şəkildə ortaya qoyub. **Sitat:** "Əgər Azərbaycan və Ermənistan Avrasiya Birliyinə inteqrasiya xəttini əsas tutarsa, o zaman Rusiya münaqişənin həlli ilə bağlı fəal iş apara və onun qaldırılması üçün hüquqi yollar təklif edə bilər. Ermənistan artıq Birliyə doğru inteqrasiya edir, gərək Azərbaycan da bunu etsin. Yalnız o halda nəsə edə bilərik".

**Duqin bu yerdə Kreml adından Azərbaycana hədə də ünvanlayıb:** "Qarabağ Azərbaycanın ərazisidir. Bunu Rusiya daxil olmaqla bütün beynəlxalq ictimaiyyət qəbul edir. Lakin reallıq başqadır. Baxın, beynəlxalq ictimaiyyət Cənubi Osetiyanı və Abxaziyanı da Gürcüstanın tərkib hissəsi kimi tanıyırdı. Lakin regionda Rusiyasız hərəkət etmək acı nəticələr doğura bilər. Gürcüstanda 2008-ci ildə yaşananlar Qarabağ münaqişəsi tərəflərinin gözü önündə olub. Əgər Qarabağda müharibə başlayacaqsa, biz müdaxilə etməyə məcbur ola bilərik".

Kəsəsi, Rusiya problemin "həllini" yalnız Avrasiya İttifaqı çərçivəsində, yəni Azərbaycanın bütünlüklə Qərbdən, Türkiyədən tam qopması halında, bir də imkan olarsa, bölgəyə sülhməramlılar adı ilə Rusiya hərbi kontingenti yerləşdirmək şərtilə görür. Yada salaq ki, XİN başçısı Sergey Lavrov da 7 aprel Bakı səfərindən sonra məhz buna açıq şəkildə işarə vurmuşdu. Yerdə qalanlar - Qarabağa dair təşəbbüskarlıq və fəallıq görüntüsü, indi aydın olur ki, Moskvanın sırf öz hədəfinə hesablanmış növbəti siyasi oyunlarıdır.

***

"Qarabağ probleminin həlli üçün baza artıq mövcuddur. Bu - Madrid prinsipləridir. Qalır yalnız onu münaqişə tərəflərinin həyata keçirməsi". Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviçin "Vestnik kavkaza" nəşrinə söylədiyi bu sözlər də eyni qəbildən olmaqla son qənaətimizi gücləndirir. Ən azı ona görə ki, bir daha Moskvanın öz vassalına təzyiq etməyə hazırlaşmadığını göstərir, çünki Lukaşeviçin dediyi münaqişə tərəflərindən biri - Ermənistan müstəqil iradə yiyəsi deyil ki, Azərbaycanla birgə həll prosesinə sərbəst qoşula bilsin.

Maraqlıdır ki, bu arada Azərbaycanlın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın son sülh təşəbbüskarlığı üzərindəki "sirr pərdəsi"ni bir azca qaldırıb. "Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aktivliyi aysberq kimidir". Nazir bu sözləri maltalı həmkarı Corc Vella ilə görüşdən sonra keçirilən mətbuat konfransında deyib. Onun sözlərinə görə, hər kəs aysberqin üst tərəfini görür. "Amma bunun aşağı tərəfi də var. Məsələni açıqlamaq tezdir. Bizə bəzi maraqlı fikirlər söyləyiblər. Yenə də hamısı yenilənmiş Madrid prinsipləri əsasındadır. Rusiyanın təkliflər irəli sürməsi bizim üçün də maraqlıdır. Rusiya bizə mərhələli şəkildə həll təklif edib. Amma ilk növbədə ermənilər işğal olunmuş Azərbaycan torpaqlarından çəkilməlidir" - Məmmədyarov vurğulayıb.

Erməni isə artıq qeyd olunduğu kimi, öz şərtlərini irəli sürür.

***

**Qeyd olunan bu və ya digər gəlişmələr Qarabağa probleminin həllinin əslində savaşdan keçdiyinə şübhə yeri saxlamır. Belə nəticəyə gəlmək olar ki, konfliktin yekun həll modeli nə Madrid prinsipləri olacaq, nə də "Kazan formulu" və ya "Lavrov varianti". Həll modelini Azərbaycan əsgəri diktə edəcək - gec, ya tez! Şərt deyil ki, Azərbaycan əsgəri gedib Xankəndində otursun. Dağlıq Qarabağ ətrafındakı 1-2 rayonun azad edilməsi də yetər. O günə İnşallah, çox qalmayıb.**

❑ **Analìtik xìdmət**



Natiq Miri



Elxan Şahinoğlu

# Qərbin atəşkəsi təmin etməyə gücü çatmır?

## Ekspertlər Ermənistanın arxayınlığının səbəblərindən danışıblar...

**Cəbhə bölgəsində yenidən atəşkəsin pozulması, davam edən hərbi əməliyyatlar Ermənistanın arxayınlığı ehtimalını yaradır. Bu məsələdə beynəlxalq güclərin özünü necə aparması da xeyli suallar yaradır. Azərbaycana böyük yatırımlar qoyan, enerji layihələrində böyük paya sahib ölkələrin atəşkəsə can atmaması da maraqlı və düşündürücü nüansdır. Maraqlıdır, görəsən, Qərbin Ermənistanı atəşkəsə əməl etdirməyə gücü çatmır, yoxsa beynəlxalq birlik bölgədə sabitlikdə maraqlı deyil? Rəyini öyrəndiyimiz ekspertlər musavat.com-a bununla bağlı fikirlərini açıqlayıblar.**

**Ekspert Natiq Miri** musavat.com-a açıqlamasında bildirib ki, əslində Qərbin və Rusiyanın atəşkəsə gücləri çatır, sadəcə, bu yöndə siyasi iradə ortada yoxdur: "Bunun cavabı birmənalıdır. Bu, həmin dünya güc mərkəzlərinin geosiyasi maraqlarına uyğun deyil. İndiki şəraitdə Azərbaycanın qələbəsi nə Rusiyaya, nə də digər Minsk qrupu həmsədr dövlətlərinə sərf etmir. Ona görə də Etmənistan işğalçı olmasına rəğmən bütün beynəxalq hüququ ayağının altına alaraq dünya üçün yenidən danışıqlar masasına qayıtmaqdan ötrü üç şərt qoyur. Hansı ki, BMT-nin bu Qarabağ problemi ilə bağlı, bilavasitə Ermənistanın işğal etdikləri torpaqlarla bağlı dörd qətnaməsi ortada var. Bu qətmanə ortada varkən, işğalçı tərəf durub bütün dünya güclərinə əlavə üç şərt qoyur ki, yalnız bunlar yerinə yetirildiyi təqdirdə, danışıqlar masasına oturacaqlar. Bu, onu göstərir ki, hüquq geosiyasi maraqlar kontekstində bəzən işləmir. O geosiyasi maraqlar gərəkdirdiyində hətta Rusiya kimi dünya gücünə belə beynəxalq hüquq tətbiq olunur. Ancaq indiki durumda beynəxalq hüquqdan əsər-əlamət yoxdur. Çünki geosiyasi maraqlar bunu gərəkdirmir, əhəmiyyətli hesab etmir. Problem budur".

**Ekspert Elxan Şahinoğlu**nun sözlərinə görə isə, atəşkəslə kifayətlənmək də əslində düzgün deyil: "Çünki bu gün bölgəyə təsiri olan dövlət Rusiyadır. Həm Ermənistanla strateji müttəfiqdir, Azərbaycanla da strateji tərəfdaşdır, Azərbaycana xeyli miqdarda silah satır. Onun səyləri nəticədində atəşkəs razılaşması əldə olundu. Amma bu gün atəşkəsə riayət olunurmu? İşğalçı dövlət bizim yaşayış məntəqələrinin vurur və Azərbaycan ordusu məcburiyyət qarşısında bu maneələri dəf etməli olur. Yəni Rusiya artıq atəşkəsə nail ola bilmir. O ki qaldı Qərb ölkələrinə, bu ölkələr Azərbaycanda enerji layihələrimizdə böyük paya sahibdirlər. Əslində müharibənin başlanması və genişlənməsi həmin enerji layihələrini, boru xəttlərinə də müəyyən qədər təhlükələr yaradır. Qərbin burada aktivləşməsi vacibdir. ABŞ, Böyük Britaniya kimi ölkələrin bu məsələdə fəallaşması vacibdir. Azərbaycan neçə ildə bu ölkələrin həm sözdə, həm də əməldə Azərbaycanın ərazi bütövlüyüyü dəstəkləməsinə ehtiyac duyub. Düzdür, son il yarımda amerikalı diplomatlar, Amerikanın Azərbaycandakı səfiri də müsbət addım kimi hər zaman deyirlər ki, Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır. Amma bu, azdır. Bizim gözləntimiz odur ki, Ermənistana təzyiq və təsirləri artırsınlar. Çünki Ermənistan Rusiyanın forpostu olsa da, biz bilirik ki, ABŞ da Ermənistana müəyyən maliyyə ianələri edir. Demək alət var ki, Ermənistana təzyiqi artırsın. Amma çox təəssüf ki, biz bunu müşahidə etmirik".

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016

# Qarabağdakı son durum Milli Məclisdə müzakirə olundu

## Deputatlar Azərbaycanı Ermənistana ultimatum verməyə çağırdılar

**Aprelin 29-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədovun sədrliyi ilə baş tutan iclasda cari məsələlərin müzakirəsi zamanı deputatlar daha çox Qarabağ cəbhəsində baş verənlərdən danışdılar.**



**Deputat Zahid Oruc** çıxışında Ermənistan prezidenti Serj Sərkisyanı istefa verməyə çağırdı: "Ermənilər iki erməni dövləti qurmaq istəyirdi. Ancaq istədiklərinə nail ola bilmədilər, üstəlik hər ikisindən məhrum olmaq üzrədirlər. Bu illər ərzində onlar demoqrafik cəhətdən məhv olublar. Ermənilər istəyir ki, rus generalları gəlib Qarabağda onların əvəzində dayansın. Sual olunur, ruslar nə üçün gəlib ermənilərin əvəzinə ölməlidir?" Z.Oruc dedi ki, sosial şəbəkələrdə və mediada diqqətli olmağa çağırdı. Deputat dedi ki, ordu haqqında hər hansı bir şayiə inzibati yolla cəzalandırılmalıdır.

**Spiker Oqtay Əsədov** bu yerdə mətbuata da müraciət etdi və ehtiyatlı olmağa çağırdı. Eyni zamanda, deputatları aktiv olmağa çağırdı: "Elə parlamentdə də hər bir məsələ ilə bağlı diqqətli olaq. Mən xahiş etdim, dostluq qrupları baş verənlərlə bağlı məktublar yazsın, həqiqətlər çatdırılsın. Bəziləri yazıb, amma yazmayanlar da var. İş o yerə çatıb ki, amerikalı senator müraciət edib deyir Azərbaycan təzyiqlərdən əl çəksin. Bəziləri heç bilmir Qarabağ harada yerləşir. Ən çox dostluq qrupları ilə işləməliyik. Xahiş edirəm, bu məsələni diqqətdə saxlayın".

**Deputat Fərəc Quliyev** dedi ki, Sərkisyanın danışıqlardan imtinaya yönəlik üç şərtlə çıxış etməsi Ermənistanın bütün beynəlxalq qurumlara hörmətsizliyi deməkdir: "Bizim bütün dostluq qrupları BMT başda olmaqla bütün beynəlxalq qurumlara müraciət etməlidir. BMT qətnamələrində açıq şəkildə tələb olunub ki, Ermənistanın işğalçı ordusu Azərbaycan ərazisini tərk etməlidir. Bu gün Azərbaycan da bunu tələb edir".

**Deputat Fəzail Ağamalı** Azərbaycanın dinc insanları arasında itki verməsini Ermənistanın kifayət qədər azğınlaşmasının bariz nümunəsi adlandırdı: "Azərbaycan beynəlxalq konvensiyalara söykənərək qəti addımlar atmalı, ultimatum verməlidir. Əgər Ermənistan bundan da nəticə çıxartmasa, Azərbaycan ordusu öz sözünü deməli, nəinki Azərbaycan, ümumiyyətlə, region bu üfunətli bəladan birdəfəlik xilas olmalıdır".

**Deputat Aydın Mirzəzadə** qeyd etdi ki, son bəyanatı Sərksiyanın ən səfeh və primitiv mövqeyidir: Beynəlxalq sənədlərdə işğalçı kimi tanınan, Xocalı soyqırımının cəlladı olan Seyran Ohanyanı müdafiə naziri təyin edən bir şəxs bu gün erməni əhalisinin təhlükəsizliyinə təminat tələb edir. Hətta Hitler də belə ağılsız və düşüncəsiz bəyanat verə bilməzdi. Sərkisyan unudur ki, bu gün Azərbaycan Zəngəzuru, Mehrisi, Göyçəsi əlindən alınan, Dağlıq Qarabağa zorla muxtariyyət statusu verilən Azərbaycan deyil".

**O.Əsədov dedi ki, Ermənistan hakimiyyəti başını itirib**: "Ona görə də xahiş edirəm Sərksiyandan çox misal gətirməyin. Sərkisyan deyir danışıqlardan imtina edirəm, xarici işlər naziri isə danışıqları davam etdirməyə hazır olduğunu bildirir. Orada baş deyəni ayaq eşitmir".

**Deputat Elşən Musayev** Avropa Şurası Parlament Assambleyasında üzləşdikləri erməni təxribatından bəhs etdi. Həmçinin diqqətçəkən müşahidələrini bölüşdü: "Xristian faktoru artıq Azərbaycan əleyhinə işləmir, erməni lobbisi prosesə neytral qalıb və Ermənistan tamamilə təklənib". E.Musayev Türkiyənin baş naziri Əhməd Davudoğlunun sərgilədiyi mövqeyini yüksək dəyərləndirdi.

**Deputat Fazil Mustafa** Azərbaycan ordusunda bir nəfər də fərarinin olmamasını xalqın orduya yüksək münasibəti kimi dəyərləndirdi. Ancaq təhsil almaq adı altında bəzi gənclərin xaricə gedib universitetlərdə baş girələməsinə diqqət çəkdi. Türkiyənin bir neçə universitetində 300-dən çox tələbə təhsil alır. Ancaq onların bir çox hissəsi illərlə 5-ci kursu bitirə bilmir. Kimsə soruşmur ki, bala sən 10 ildir Türkiyədə nə işlə məşğulsan, niyə gəlib orduda xidmət etmirsən? Demək, əsgərlikdən yayınmaq üçün xeyli insanlar bu üsula əl atıb. Onsuz da bizim universitetlərin xeyli hissəsi bilik yox, diplom verməklə məşğuldur. Elə addımlar atmaq lazımdır ki, bəziləri təhsildən istifadə edərək ordudan yayınmasın".

**Deputat Sahib Alıyev** dedi ki, erməni canilərinin mülki əhalini atəşə tutması nəticəsində Tərtərdə 256 ev dağılıb ki, bu, bir kənd deməkdir. Çox təəssüf ki, Minsk Qrupu həmsədrləri olan ölkələr məsələyə seyrçi qalır. Bu, Azərbaycan ordusuna haqq verir ki, genişmiqyaslı hərbi əməliyyatlara başlasın. Amma Azərbaycan daha çox qan tökülməsini istəmir". S.Alıyev Ermənistana "hədiyyə" göndərilən 1 ədəd T-90S tankının gətirilməsi xəbərinə reaksiya verdi: "Erməni tərəfi onu unutmamalıdır ki, Azərbaycan 100 T-90S tankı alıb".

**Deputat Elman Nəsirov** bildirdi ki, beynəlxalq ictimaiyyət olduqca müəmmalı susqunluq nümayiş etdirməkdədir: "Gözlənilirdi ki, beynəlxalq ictimaiyyət hərəkətə keçəcək və təcavüzkarın cəzalandırılmasına qərar verəcək. Ancaq xristian təəssübkeşliyi yenə özünü göstərdi. Cəzasız qalan Ermənistan dinc əhalini hədəfə alıb".

**Vitse-spiker Bahar Muradova** Azərbaycan xalqının öz ordusuna inamından bəhs etdi. Dedi ki, biz beynəlxalq təşkilatları, ölkələri Azərbaycanın yanında olmağa yox, ədalətin, beynəlxalq hüququn yanında olmağa çağırmalıyıq: "Biz fəaliyyətimizi çox genişləndirməliyik, həmçinin beynəlxalq aləmi informasiya ilə təmin etməliyik". Ancaq ehtiyatlı olmağa da çağırdı: "Biz razılaşmışdıq ki, cəbhədə baş verənlərlə bağlı yalnız Müdafiə Nazirliyinin məlumatını yayaq. Bizim qarşıda görəcəyimiz çox böyük işlər var".

Bundan sonra Milli Məclis Azərbaycanın insan alverinə qarşı mübarizə üzrə illik hesabatı müzakirə olundu. Hesabatı **daxili işlər nazirinin birinci müavini, insan alverinə qarşı mübarizə üzrə milli koordinator Vilayət Eyvazov** təqdim etdi. Qeyd etdi ki, ötən il ərzində "Qaynar xətt" telefon xidmətinə daxil olan 13 000-dən çox müraciət araşdırılıb və hər biri üzrə qanunla müəyyən edilən tədbirlər görülüb. Nazir müavininin sözlərinə görə, müəyyənləşən 63 qurbandan *(57 qadın, 6 kişi)* 38-i Türkiyəyə, 8-i Birləşmiş Ərəb Əmirliklərinə, 3-ü Rusiyaya aparılıb, 14 nəfər, o cümlədən 7 əcnəbi ölkə daxilində istismara məruz qalıb *(5 Özbəkistan, 1 Türkmənistan və 1 Ukrayna vətəndaşı - **E.P.**)* Qurbanlardan 51-i sığınacağa yerləşdirilərək hər birinə zəruri yardımlar edilib və təhlükəsizliyi təmin olunub. Bütövlükdə 63 qurbana birdəfəlik müavinət verilib, 42-sinə Kömək Fondu tərəfindən maddi yardım göstərilib, 22-i işlə təmin edilib, 31-i peşə kursuna göndərilib. Həyata keçirilən profilaktik tədbirlərlə 31 qurban ailəsinə qayıdıb, sosial xidmətlə əhatə olunması üçün 51 qurban qeyri-hökumət təşkilatlarına istiqamətləndirilib. 56 qurbana hüquqi və psixoloji yardım, həmçinin 16 qurbana tibbi xidmət göstərilib, 13-ü şəxsiyyəti təsdiq edən sənədlərlə təmin olunub. V. Eyvazov əlavə edib ki, Azərbaycanda ötən il ərzində 450 azyaşlının küçə həyatına məruz qalması, dilənçiliyə və qeyri-qanuni qulluğa cəlb edilməsi faktı aşkarlanıb: "Müvafiq yoxlamalarla həmin uşaqların insan alverinin və məcburi əməyin qurbanı olması təsdiqlənməyib. Lakin övladlarının təlim-tərbiyəsi ilə bağlı vəzifələri yerinə yetirməyən, onları hüquqazidd əməllərə cəlb edən 200-dən artıq valideyn barəsində inzibati məsuliyyət tədbirləri görülüb". "Bu gün elə bir ölkə yoxdur ki, orada insan alverinin baş vermədiyini əminliklə demək mümkün olsun" deyən, V.Eyvazov əlavə etdi ki, bu transmilli cinayətə qarşı aparılan mübarizəyə ölkə prezidenti tərəfindən böyük siyasi dəstək verilir.

Müzakirələr zamanı söz alan **deputat Fazil Mustafa** son illərdə insan alverinə qarşı mübarizənin kifayət qədər effektli olduğunu və bu işin beynəlxalq təşkilatlar tərəfindən dəstəkləndiyini vurğuladı. Bu mübarizədə Milli koordinator Vilayət Eyvazovun şəxsi keyfiyyətlərinin mühüm rolu oynadığını qeyd edən deputat, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevin bu sahə ilə məşğul olan QHT-ləri maliyyələşdirməsinə də diqqət çəkdi. F.Mustava daxili işlər naziri Ramil Usubova və nazirin 1-ci müavini, milli koordinator Vilayət Eyvazova ilginc bir məsələ ilə bağlı müraciət edib, problemi diqqətdə saxlamağı xahiş etdi: "Bu yaxınlarda bir fakt aşkar olundu ki, qeyri-qanuni miqrant kimi 2 minə yaxın uşaq İstanbul yaxınlığında yerləşib. Onların valideynlərinin və özlərinin sənədləri olmadığı üçün uşaqlar təhsil ala bilmirlər. Təsəvvür edin ki, Suriyadan qaçqın düşən 3 milyondan çox miqrantın 85 faizinin övladları təhsilə cəlb olunub, ancaq azərbaycanlı 2 min uşaq təhsildən kənarda qalıb. Artıq 150-yə yaxın uşaq İrana göndərilib. Onlar sabah radikal qüvvələrin əlində oyuncağa çevrilə və Azərbaycana qarşı yetişdirilə bilər".

**Deputat Siyavuş Novruzov** uşaqların reabilitasiyası üçün kompleks işlərin həyata keçirilməsini, bu sahədə televiziyaların xüsusi rol oynamasını zəruri saydı: "Bir az xörək bişirilməsi ilə bağlı verilişləri azaldıb, bu insanların taleyi ilə məşğul olmaq lazımdır".

**S.Novruzov itkin düşən azərbaycanlıların daxili orqanlarının Ermənistan tərəfindən xaricdə satılması ilə bağlı ciddi araşdırmaların aparılmasını təklif etdi:** "Qarabağ müharibəsində ermənilərə əsir düşən insanların böyük hissəsi insan alverinin qurbanına çevrilib. Biz beynəlxalq məhkəmədə bu məsələləri qaldırıb cinayətkarların cəzalandırılmasına nail olmalıyıq ki, belə hallar təkrarlanmasın".

**Deputat Zahid Oruc** qeyd etdi ki, biz yaradılmış qurumun fəaliyyəti səviyyəsində dilənçiliyin azaldılmasını gördük.

**Deputat Fəzail Ağamalı** insan alverinə qarşı mübarizədə aparılan işləri təqdir etdi. O, yetkinlik yaşına çatmayan qızların ərə verilməsinə qarşı sərt mübarizəyə çağırdı. Həmçinin deputat erməni əsirliyində olan azərbaycanlıların daxili orqanlarının satılması ilə bağlı cinayət işinin açılmasını, sonadək məsələnin üstünə gedilməsini zəruri saydı.

**Deputat Elmira Axundova** Sumqayıtda özünü "əlil" kimi təqdim edib pul dilənən fırıldaqçılara qarşı sərt mübarizə aparılmasını xahiş etdi. Həmçinin təklif etdi ki, erkən yaşda ərə verilən qızlar da insan alveri qurbanlarının siyahısına salınsın. Xanım deputat bu yaxınlarda intihar edən 15 yaşlı qızın nişanlı olmasına diqqət çəkdi.

**Milli Məclis sədrinin I müavini Ziyafət Əsgərov** mətbuat orqanlarını insan alveri ilə bağlı məsələlərdə mətbuatı ehtiyatlı olmağa çağırdı. "İnsan alverinə qarşı mübarizədən danışırıq gərək ictimaiyyət və mətbuat da dəstək olsun. Bir də baxırsan ki, yazırlar filan futbol klubun üzvü başqa futbol klubuna satılıb. Burada müqavilə və transferdən söhbət gedir. Satılıb nə deməkdir?! Bu insandır və necə alver predmeti ola bilər?! İnsan alverinə qarşı mübarizədən danışırıq, amma belə sözlər eşidirik. İfadələrdə ehtiyatlı olmalıyıq".

**Deputat Qüdrət Həsənquliyev** son vaxtlar DİN-in ictimai asayişin təmin olunmasını, cinayətkarlığa, o cümlədən insan alverinə qarşı mübarizədə effektli işləri müsbət dəyərləndirdi. "Son bir ay ərzində gömrük orqanları iki böyük partiya narkotik maddəni aşkarlayıb. Bu zaman 1 tondan artıq, dəyəri milyonlarla dollar olan narkotik maddə aşkarlanıb. Azərbaycan BMT və digər qurumlarla əməkdaşlıq edib beynəlxalq sahədə də öz töhfəsini verməlidir. Narkotik aşkar edənləri bəlkə yüksək mükafata layiq görmək lazımdır ki, bu sahə ilə mübarizəyə diqqət daha da artsın. DİN mütləq Gömrük Komitəsi ilə əməkdaşlıq etməlidir. Bu yaxınlarda aşkar edilən narkotik Belçikaya göndərilirmiş, özü də kişmişik içərisində. Bizim müvafiq qurumlar beynəlxalq təşkilatlarla əməkdaşlığı gücləndirməlidir. O cümlədən İranla əməkdaşlıq edilməlidir. Çünki uzun müddətdir İrandan ölkəmizə narkotik daşınır".

**Deputat Çingiz Qənizadə** dedi ki, mütəşəkkil cinayətkarlığın tərkib hissəsi olan və çox böyük gəlir gətirən sahə insan alveridir: "Ancaq sevindirici hal odur ki, son 10 ildə bu sahə ilə mübarizədə yüksək səviyyədə mübarizə aparılır. Mən də daxil olmaqla vətəndaş cəmiyyətinin nümayəndələri ilə əlaqələrə yüksək qiymət verilməsinə görə təşəkkür edirəm". **Ç.Qənizadə DİN-in qurbanlar üçün yaratdığı sığınacaqdan danışdı. Dedi ki, sığınacaq bir otelə bənzəyir:** "Hətta düşündük ki, bəziləri orada qalmaq üçün özlərini qurban elan etməyə də hazır ola bilər. Hətta bir əcnəbi qurban var idi, həmin şəxs oranı tərk etmək istəmirdi".

Müzakirələr dayandırıldıqdan sonra **milli koordinator Vilayət Eyvazov** deputatların fikirlərinə münasibət bildirdi. **Deputat Fazil Mustafa**nın Türkiyədəki 2 min sənədsiz uşağın təhsil ala bilməməsinə münasibət bildirəndə dedi ki, bütün ölkələrdə vətəndaşlarımızın şəxsiyyət vəsiqəsi ilə təmin olunması üçün tədbirlər görülür: "Bu məsələ də diqqətlə araşdırılacaq və qısa müddətdə məsələ həllini tapacaq".

Nazir müavini əsir və itkin düşmüş azərbaycanlılarla bağlı cinayət işinin qaldırıldığını, bu məsələlərin də orada öz əksini tapdığını dedi.

Erkən nikahları insan alverinin predmetinə aid etməyi mümkün saymayan V.Eyvazov dedi ki, ilbəil belə hallar sürətlə azalır.

Bundan sonra hesabat səsə qoyuldu və qəbul edildi.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016

**Minval.az saytı artıq Azərbaycanın rusdilli media məkanında özünə yer tutub. Xüsusən son Qarabağ döyüşlərində MDB, ümumilikdə rusdilli auditoriyanın gözü Azərbaycandan yayınlanan bu media orqanına da fokuslandı. Saytın gənc baş redaktoru Emil Mustafayevlə söhbətimizdə həm rusdilli medianın durumu, həm də rəhbəri olduğu minval.az-ın həyatından danışdıq.**

# "Minval.az-dan ayrılmalı olsam, mətbuatdan gedəcəm"

## Emil Mustafayev: "Xəbər narkotik kimidir, ondan ayrılmaq olmur"; "Azərbaycandilli oxucunu aldatmaq olur, rusdilli oxucunu isə yox"



**"Rusiya mətbuatı bizə qarşı işləyirdi. Biz daha çox onlarla mübarizə aparırdıq, nəinki Ermənistan mətbuatı ilə. Rusiya mətbuatı daha çox dezinformasiya yayır, öz müxbirlərini döyüş bölgələrinə göndərirdilər. Üstəgəl, bizim XİN-dən icazə almır və gedib ordan aldadıcı, yanlış xəbərlər, qərəzli reportajlar yayırlar"**

**"Bakıda rusdilli mətbuat azdır. Son Qarabağ hadisələri göstərdi ki, bu normal deyil. İnformasiya müharibəsində rusdilli medianın rolu çox böyükdür. Hətta ingilisdilli mətbuatdan daha effektivdir"**

*- Minval.az-ın baş redaktoru... Mediada sizi belə tanıyırlar. Siz özünüzü bizə necə təqdim etmək istəyərdiz?*

- Özümü elə Emil Mustafayev kimi təqdim etmək istərdim. Çünki məni əvvəlki, "Zerkalo" qəzetində işləməyə başladığım dövrdən belə tanıyırlar. Harada işləməyimdən asılı olmayaraq, dost-tanış, siyasi çevrə belə tanıyır.

*- Mətbuata "Zerkalo"dan başlamısız.*

- Bəli.

*- Səhv etmirəmsə, yaşınız xeyli gəncdir...*

- 24 yaşım var.

*- Azərbaycanda 24 yaşında sayt baş redaktoru klassik mənzərə deyil. Təbii ki, əgər saytı özün yaratmamısansa, sponsoru özün tapmamısansa... Sizdə hekayə necə oldu?*

- Mən birinci kursda oxuyanda artıq işləmək istəyirdim. Sentyabrda dərslər başladı, oktyabrda mən iş axtarmağa başladım. Rus bölümündə təhsil aldığım üçün təbii ki, rusdilli mediada işləyə bilərdim. O vaxt da rusdilli media adına iki qəzet vardı - "Zerkalo" və "Exo". Mən əslən Göyçaydanam. Bildiyimə görə də, "Zerkalo"da göyçaylılar hər zaman çox olub (gülür).

*- (zarafatla) Nə əlaqə? Elçin Şıxlı əslən Qazaxdandır mən bilən... "Zerkalo" niyə göyçaylıların məskəni olub?*

- Məncə, bir təsadüfdür. Amma bu, hər zaman belə olub. Ona görə də gəldim "Zerkalo"ya. Bir neçə dəfə redaksiyaya getdim, Elçin bəy yerində yox idi. Bütün ümidlərimi itirmişdim ki, bu iş alınmayacaq. Amma bir gün yenə bütün həvəsimi toplayıb dedim ki, mən başlamalıyam. Zəng etdim redaksiyaya, dedilər ki, Elçin bəy yerindədir. Katibədən görüş istədim və gəldim. Katibə isə məni Elçin müəllimə onun tələbəsi kimi təqdim etdi. O vaxt Elçin müəllim Bakı Slavyan Universitetində dərs deyirdi. Bəlkə də o, məni tələbəsi kimi təqdim etməsəydi, mən nə Elçin bəylə görüşə biləcəkdim, nə də işə başlaya.

*- Amma siz onun tələbəsi deyildiz...*

- Xeyr. Mən Azərbaycan Beynəlxalq Universitetinin jurnalistika fakültəsində oxumuşam. Beləliklə, Elçin müəllim məni qəbul etdi, tələbəsi olmadığım anlaşılanda isə gəlişimin səbəbi ilə maraqlandı. İşləmək istədiyimi dedim. Hansı sahədə yazmaq istədiyimi soruşdu. Siyasətin mənə daha yaxın olduğunu dedim. Zəng vurub, Rauf Mirqədirovu çağırdı. Həmin vaxt siyasət şöbəsinə Rauf bəy və Azər Rəşidoğlu baxırdı. Elçin bəy məni ona təqdim etdi. Sonra otağa getdik və orada stajlı jurnalistlər oturmuşdu. Onlar mənə siyasətdən xeyli suallar verdilər və mən hamısına cavab verdim. Təbii ki, təəccübləndilər və dedilər ki, bəzən redaksiyaya 25-26 yaşlı jurnalist namizədləri gəlir və onlar bu sualların çoxunu cavablaya bilmirlər. Mən uşaqlıqdan siyasətlə maraqlandığım üçün bu mövzuları yaxşı bilirdim. Bir ay təcrübədə oldum və işləməyə başladım.

*- Yollarınız minval.az-la necə kəsişdi?*

- Təsadüfən. Əsgərlikdən dönmüşdüm, işləmək istəyirdim. "Zerkalo"ya getdim, orda vəziyyət yaxşı deyildi. Tələbə vaxtı minimal qonorarla dolanmaq olur, əsas təcrübə qazanmaqdır. Amma daha sonra ehtiyaclar artır və anladım ki, "Zerkalo"da davam etmək alınmayacaq. Köhnə kollektivdən isə çox az adam qalmışdı. Mənim jurnalist həmkarım Ülviyyə Axundova həmin vaxt dedi ki, minval.az-da vakansiya var. İki həftəlik staj keçdim və işə qəbul oldum.

*- Azərbaycanda rusdilli media bazarının durumu necədir sizcə? Sayınız azdır. Bəs rəqabət? Mən tez-tez həmkarlardan eşidirəm ki, rusdilli oxucunu azərbaycandilli oxucudan fərqləndirən cəhətlər var. Nələrdir bunlar?*

- Başlayaq oxucu məsələsindən. Mən dəfələrlə demişəm ki, azərbaycandilli oxucunu xəbərlə aldatmaq çox asandır. Əgər o, yalnız azərbaycan dilini bilirsə, onun informasiya baxımdan əhatə dairəsi çox kiçikdir. Onu bəzən dəxli olmayan başlıqlarla belə aldadan saytlar olur, bunu bilirsiz. Maraqlı başlıqlar olur, amma mətndə ciddi heç nə yoxdur. Rusdilli oxucu isə daha sərt, tələbkar və daha məlumatlıdır. Onu yalançı başlıqla aldatmaq qeyri-mümkündür. Biz onu saytda bir-iki dəfə aldatsaq, o, öncə saytın şərh bölməsində öz irad və narazılığını bildirəcək. Daha sonra facebook səhifəmizdən çıxacaq və bizi izləməyəcək. Bizə gələn reaksiya və müraciətlərdən gəldiyim nəticə budur ki, minval.az saytını çox ciddi adamlar oxuyur. Bu adamlar çox ciddi yerlərdə çalışırlar, əhatə dairələri genişdir. Bu insanlar sağlam düşünə bilir və müqayisə aparırlar. Bakıda rusdilli mətbuat azdır. Son Qarabağ hadisələri göstərdi ki, bu normal deyil. İnformasiya müharibəsində rusdilli medianın rolu çox böyükdür. Hətta ingilisdilli mətbuatdan daha effektivdir. Çünki hadisələr baş verəndə Rusiyadan, MDB məkanından daha çox oxucular bizi izləyirdi. Ermənistan oxucusu bu siyahıda üçüncü yeri tuturdu. Rus dilində xəbər almaq imkanı olan auditoriya böyük bir coğrafiyanı əhatə edir. Və onların çoxu da ingilis dilini bilmir. Bu coğrafiya Azərbaycan üçün həyati əhəmiyyətli coğrafiyadır. Ona görə də hökumət bu məqamda rusdilli mətbuata daha çox diqqət, dəstək ayırmalıdır. Əgər biz həqiqətlərimizi daha çox çatdırmaq, informasiya müharibəsində uğurlarımızı artırmaq istəyiriksə, bunu nəzərə almalıyıq. İndi ölkədə rusdilli sayt adına 5 sayt var. Aprel ayı boyunca bu media quruluşları böyük işlər gördülər. Əgər bizim sayımız 5 yox, 3 olsaydı, biz dünyaya heç nə çatdıra bilməzdik. Çünki Rusiya mətbuatı bizə qarşı işləyirdi. Biz daha çox onlarla mübarizə aparırdıq, nəinki Ermənistan mətbuatı ilə. Rusiya mətbuatı daha çox dezinformasiya yayır, öz müxbirlərini döyüş bölgələrinə göndərirdilər. Üstəgəl, bizim XİN-dən icazə almır və gedib ordan aldadıcı, yanlış xəbərlər, qərəzli reportajlar yayırlar.

*- Olduqca kiçik bir işçi heyəti ilə Rusiyadan, MDB ölkələrindən xeyli oxucunu ətrafınızda birləşdirməyi bacarmısız. İş bölgünüz necədir? Günün 24 saatı işləyirsizmi?*

- 4 nəfərlik heyətlə çalışırıq. Bu cür informasiya axını ilə belə kiçik heyətin işləməsi ciddi yükdür. Həftədə bir dəfə, bazar günü dincəlirik. Çünki dincəlməsək, ümumiyyətlə absurd olar. Sayt əvvəllər gecə saat 1-2-yə qədər işləyirdi. Aprel hadisələrindən sonra isə 24 saatlıq rejimdə, onlayn, operativ çalışırıq. Bizim heyətdə vaxtilə İlkin Qəmbər (baş redaktor), rəhmətlik Zəfər Quliyev, eləcə də Yanina Mədətova var idi. İndi biz minimumla işləyirik. Amma hesab edirəm ki, bu, müvəqqətidir. Gələcəkdə biz bəlkə də yenidən toparlandıq və yeni güclə işimizə davam etdik. Hazırda isə minval.az-ın həyatında qısaca bir zəifləmə var.

*- Rusdilli oxucu sizi diqqətlə izləyir. Bəs siz özünüz nəyi, kimi izləyirsiz, iş həyatınızın prioritetləri nələrdir?*

- Hazırda bizimçün Rusiya və Ermənistan mətbuatı prioritetdir. Onların yazdıqları, analizləri, siyasi şərhçilərinin fikirləri. Biz ölkəmiz adına, onun maraqları istiqamətində informasiya müharibəsi aparırıq və belə bir şəraitdə Amerikadakı seçkiləri prioritet götürə bilmərik.

*- Yerli medianı izləmirsiz?*

- Xeyr.

*- Niyə? Ölkənin nəbzini tutmaq, informasiya əldə etmək üçün bu, vacib deyil?*

- Yerli media adına mən ancaq müsavat.com saytını izləyirəm. Musavat.com saytına daxil olmaqla bütün gündəmin nəbzini tutmaq mümkündür. Çünki bu saytda xəbər zibilliyi yoxdur, ancaq vacib olan xəbərlər var.

*- Bir redaktorun gündəlik həyat tərzi necə olmalıdır? Xüsusən də indiki informasiya rəqabəti şəraitində. Bütün gün gözün internetdə, vatsapla xəbərləşmədə, informasiyada... Siz eyni zamanda gəncsiz. Belə həyat tərzi sizin həyatınızdan oğurlamırmı?*

- Mən düşünürəm ki, əvvəlki vaxtlarda olduğu kimi, qəzetdə işləsəydim, saat 10-da işə gələrdim. Əgər növbətçi redaktoramsa qəzet çapa gedən kimi mənim də iş saatım bitir və şəxsi həyatım başlayardı. Amma sayt redaktoru üçün bu, fərqlidir. Çünki onlayn rejimdə çalışırsan və şəxsi həyatın minimuma enir. Hansısa xəbəri operativ verməsək uduzuruq. Özü də oxucu bu məsələlərdə tələbkarlıqla yanaşı, nankorluq da edir. Bir az gecikdin, səndən ayrılır, gedib başqasının məhsulunu alır. Onu geri qaytarmaq çətin olur. Ona görə də 24 saat olmasa da, məcburuq ki, gecə saat 3-4-ə qədər xəbərləri izləyək, onu oxucuya çatdıraq. Xəbərdən ayrılmaq çətindir. Yanlış anlaşılmasın, amma xəbər narkotik kimidir, asılılıq yaradır. Oturub xəbərlə məşğul olanda, ona aludə olanda belə problem yaranır. Biz təkcə xəbərlə məşğul olmuruq. Eyni zamanda tam mənzərə aydın olsun deyə o mövzu ilə bağlı bütün gəlişmələri, xatırlatmaları da edirik.

*- Bir az da şəxsi həyatdan danışaq. Sosial şəbəkədə sizi izləyənlər bilir. Gürcü nişanlınız var - Qoqnidze soyadlı. Əminəm ki, maraqlı bir "love story" danışa bilərsiz bizə. Tanışlıq, bir araya gəlmə... necədir hekayəniz?*

- O gürcü deyil, tatardır. Soyadı gürcü soyadı olduğu üçün bir az çaşqınlıq yarana bilər. Amma onun atasının nəslində nə vaxtsa gürcü olub deyə o soyadı daşıyırlar. Amma ana tərəfdən Tovuzdandır.

*- Nə qəribə? Gürcü soyadlı, atası tatar, anası tovuzlu... bir nişanlı. Bu xanımla harda tanış olduz?*

- Mənim sinif yoldaşımın və onun rəfiqəsinin toyunda. Çox gözlənilməz oldu. Bizdə adət belədir ki, insanlar toya kiminləsə tanış olmaq üçün gedirlər. Mənim özümə də təəccüblü gəlir ki, bu banal tanışlıq hekayəsi niyə mənim başıma gəldi (gülür). Çünki bunun əleyhdarı olmuşam hər zaman. Nişanlıyıq, avqustda da toyumuz olacaq.

*- Gələcək planlarınız... deyə soruşum. Media sahəsində qalmaq, başqa bir sferada davam etmək, ya?..*

- İndiki vəziyyəti hamımız bilirik. Bütün media üçün çətindir. Minval.az isə yeganə saytdır ki, reklamsız fəaliyyət göstərir. Səbəblərini bilmirəm, amma bizə reklam vermirlər. Yalnız şəbəkə reklamları ilə kifayətlənirik. Ölkədə reklam bazarı müəyyənləşdirilir. Bəlkə bizim müstəqilliyimiz kimisə qıcıqlandırır.

*- Bəlkə bu, "Yeni Müsavat" Media Qrupuna daxil olduğunuza görədir, sizi müxalifyönlü hesab edirlər?*

- Bizdə əvvəllər saytın rəhbəri İlkin Qəmbər idi. Həmin vaxt üzərimizdə müxalifətçi yarlığı var idi. Ötən ilin iyun ayından etibarən sayta mən rəhbərliyə gəldim. Bu bir ildə buna nail olduq ki, artıq bizə heç kim müxalifətçi demir və hesab edirəm ki, bu, normaldır. Hazırda minval.az-dan çox razıyam. Burda çox böyük azadlıqlar var. Amma işdi nəsə problem yaransa, mən minval.az-dan ayrılmalı olsam, mətbuatdan gedəcəm. Çünki hazırda söz azadlığının qorunduğu ikinci belə məkan yoxdur.



**"Rus dilində xəbər almaq imkanı olan auditoriya böyük bir coğrafiyanı əhatə edir. Və onların çoxu da ingilis dilini bilmir. Bu coğrafiya Azərbaycan üçün həyati əhəmiyyətli coğrafiyadır. Ona görə də hökumət bu məqamda rusdilli mətbuata daha çox diqqət, dəstək ayırmalıdır"**

❑ **Sevinc TELMANQIZI**



# Günəş sistemindəki mövqeyim

Zamin HACI
zaminhaci@mail.ru

(Bu yazını siyasi dustaq İlkin Rüstəmzadəyə ithaf edirəm)

**Bu yaxında sosial şəbəkədə müdafiə nazirini tənqid edən status yazmışdım, AzTV ənənələri və 23 illik yapizm bulağından su içməklə böyüyən bir nəfər altdan belə bər-bəzəkli şərh vermişdi: "Yaxşı yumorunuz, satiranız var, ancaq vətəndaş mövqeyiniz sıfırdır". Çoxdandır ura-patriotizm püskürtülərinə reaksiya vermirəm, ancaq bu qardaşın yazdıqları məni düşündürdü. Doğrudanmı vətəndaş mövqeyim yoxdur? Ümumiyyətlə, vətəndaş mövqeyi nədir, onu yemək-içmək, kreditə vermək, lazım gələndə isə itirmək mümkündürmü? Bu yalançı pafosun, yaltaqlığın konfet kağızına bükülüb sadə vətəndaşlara zorla yedizdirilən demaqoqiyanın cavabını vermək qərarına gəldim. Öncə qeyd edim ki, burada patriotizmi tənqid eləmiş dahi Lev Tolstoya, ya da "Patriotizm alçaqların sonuncu sığınacaq yeridir" deyən Çeksona istinad etməyəcəm - klassiklərin arxasında gizlənmək mənim vətəndaş mövqeyimə yaraşmaz.**

İlk növbədə, vətəndaş anlayışına diqqət eləməliyik, sonra bu vətəndaşın mövqeyi söhbətinə keçərik. Azərbaycanda vətəndaşlıq hüququ qorunurmu? Biz seçkilərdə səs verib öz hakimiyyətimizi seçmək, onu dəyişdirmək haqlarına sahibikmi? Yox. Demək vətəndaşlığımız özü formal bir şeydir - hakimiyyət tərəfdən baxanda. Ancaq biz lap o bəzi uydurmaçıların dediyi bucaqdan məsələyə baxaq, hesab edək dövlət ayrıdır, hakimiyyət ayrı. (Bu, olduqca mənasız söhbətdir. Dövlət və hakimiyyət necə ayrı ola bilər? Bəs bizi hazırda idarə edənlər kimdir? Hələ bir gülməli söz də deyirlər: "Bunlar gəlib-gedəcək, dövlət qalacaq". Getmirlər axı). Biz də bu dövlətin mövqeyini qoruyan vətəndaş olmalıyıq. Olaq. Sözüm yoxdur. Ancaq bu da mücərrəd, əfsanəvi sözlərlə baş vermir. Real, gözlə görünən, dövlətin hüquqi aktları ilə qeydə alınan hərəkətlərlə olur. İzah edim.

Misal üçün, mənim vətəndaş mövqeyim - loru dildə desək, vətəndə dayandığım nöqtə nədir? Mən jurnalistəm. Yuxarıdakı yoldaş yazılarımın yaxşı olduğunu qeyd etmişdi. Deməli, öz işimin öhdəsindən pis gəlmirəm. İkincisi, hərbi çağırışdan yayınmadan əsgərlik xidmətimi etmişəm, özü də cəbhə xəttində. Üçüncüsü, vergiləri ödəyirəm. Heç bir banka kredit borcum yoxdur. Xarici dövlətlərə satqınlıq etməmişəm. Korrupsiya ilə məşğul olmuram. Ofşor hesablarım yoxdur. Dubayda oğluma villa almaq bir yana, heç siçan yuvası kimi balaca evimdə ona ayrıca otaq düzəltməyə imkanım yoxdur. (Bunu deyinmək üçün yazmadım, vətəndaş mövqeyimi hərtərəfli açıram). Azı 22 ildir jurnalistika ilə məşğulam, bir nəfər gəlib deyə bilməz ki, filan ayda sənə 22 qəpik rüşvət vermişəm. 22 ildə 2 yalan cümləmi də tapmaq olmaz. *(Vicdanlı səhvlər bəlkə olub).*

Oxuculardan üzr istəyib özümə bəy tərifini dayandırıram. Sadəcə, istədim ki, kimlərsə sizə də qarşı bu "vətəndaş mövqeyi" səfsəfəsini irəli sürəndə mənim kimi cavabını verib ağzını yumasınız. Azərbaycanlıların - sadə, kasıb azərbaycanlılardan söhbət gedir və onlar 90 faiz əhalidir - lap qəşəng də vətəndaş mövqeyi var, bu ölkədə vətəndaş mövqeyi olmayan bir zümrə varsa o da elə yapistlər, hakimiyyət nümayəndələridir.

Eşşək ətindən kolbasa düzəldib satanlar, iyirmi qəpiklik "qaymaq", ayaqqabı kremi iyi verən "meyvə şirələri" ilə millətin canına zəhər yeridib məhv edənlər vətəndaş mövqeyindən dəm vururlar. Deyirlər hər kəsin əsgərlik yerini kompüter müəyyən edir. Bəs niyə cəbhə xəttinə bu icra nümayəndələrinin, rəislərin uşaqlarından bir nəfər də düşmür? Bunu soruşursan, deyirlər vətəndaş mövqeyini göstər.

Yalan yazan jurnalistlər, yaltaq "hüquq müdafiəçiləri", satqın müxalifətçilər, idiot yazıçılar, cibə nəşə atan hakimlər, yetimlərin son tikəsini boğazından çıxaran namərdlər - hər kəsin dilində bu ifadə vardır. Vətəndaş mövqeyi! Əsas odur vətəndaş mövqeyin olsun, sonra lap avtobusda təqaüdçü qadının çantasına girə bilərsən.

İşin romantik tərəfinə gələndə... Vətənpərvərlik saxta, geridə qalmış ifadədir. Misal üçün, sən Xəzərin ancaq Azərbaycan sektorunu sevirsən? Yaxud, Rusiyadan uçub gələn bulud xain bulud sayılır? Bunlar qədim, mağara dövründən qalma anlayışdır, 20-ci əsrdə beynəlxalq insan haqları konvensiyaları qəbul ediləndən bizim vətənimiz Yer kürəsidir. Əsas budur - insan hüquqları. Buna öz ərazisində əməl edən insan vətənpərvərdir. Qalanı boşboğazlıqdır.

**Yəhudilərdə belə bir adət var, uşağa balaca vaxtından öz tərcümeyi-halını yazmağı belə öyrədirlər, misal üçün: "Filan küçə, Yerusəlim şəhəri, İsrail dövləti, Yer kürəsi, Günəş sistemi, Süd yolu qalaktikası". Biz də belə olmalıyıq. Qalaktikamıza sahib çıxmalıyıq. Günəş sisteminə iddia edəsi uşağı sən balaca vaxtından "bala, sən nehrəmlisən", "oğlum, sən ayrı kənddən qız alma" tərbiyəsi ilə böyütsən, o, elə xırdaçı bir adam olacaq.**



# "Bu gün Ermənistan cəmiyyətində Rusiyaya nifrət daha çoxdur, nəinki Azərbaycanda..."

## Ərəstun Oruclu: "Proseslər birmənalı olaraq Azərbaycanın xeyrinə gedir"; "Azərbaycana qarşı 6-7 ağır şərt irəli sürülüb və rədd cavabı alınıb"

**"Şərq-Qərb" Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu başa çatmaqda olan aprel ayında Qarabağ cəbhəsində baş verənlər, bununla əlaqədar diplomatiya və informasiya müharibəsində müşahidə olunan proseslər barədə "Yeni Müsavat"ın suallarını cavablandırıb. Müsahibəsində tanınmış politoloq maraqlı açıqlamalar və təhlillərlə çıxış edib. Ərəstun Oruclu ilə müsahibənin birinci hissəsini təqdim edirik.**

***- Ərəstun bəy, aprel ayının əsas mövzusu təmas xəttində olan hərbi əməliyyatlardır. Proses davam edir. Amma biz məsələni bir az başqa aspektdən dəyərləndirmək, sizin fikrinizi almaq istəyirik. Aprel ayı boyunca baş verən hadisələr 22 illik status-kvonu dəyişdi deyə bilərikmi?***

- Mövzu həqiqətən də aktualdır. Aprelin əvvəlində başlayan proseslər dayanmayıb, davam edir. Sualınıza birbaşa cavab verməzdən əvvəl, nə baş verdi sualını cavablandırsaq, mənə elə gəlir ki, sonda gəlib sizin ünvanladığınız sualın cavabına çıxacağıq. Uzun müddət belə bir fikir formalaşmışdı ki, artıq Azərbaycan faktiki olaraq barışıb mövcud vəziyyətlə, artıq Azərbaycan hakimiyyətini və xalqını maraqlandıran başqa məsələlərdir, Azərbaycanın həm Rusiya ilə, həm Qərblə müəyyən bir anlaşılmış siyasəti var və bu sabit durum hər kəsi qane edir, belə də davam edəcək. Əslində biz dəfələrlə bildirmişdik ki, bu, belə gedə bilməz. Bunun da çox sadə bir izahı var. 2008-ci ildən bu yana faktiki olaraq 20 il ərzində mövcud olmuş Qərb-Rusiya əməkdaşlığı formatı pozuldu. Bu, Gürcüstana başladı...

***- Bölgəyə münasibətdə olan əməkdaşlıqdan söhbət gedir?***

- Tək bölgəyə yox, ümumiyyətlə bu, bir çox məsələlərə dair qlobal əməkdaşlıq idi. Azərbaycana da həmin dövrdə balanslaşdırılmış xarici siyasət aparmaq imkanı bu səbəbdən verilmişdi. Çünki qarşıdurma olmayanda bir növü maraqlar təmin olunmuş olur. Amma 2008-ci ildəki Gürcüstan ətrafındakı qarşıdurma, bunun ardınca ABŞ-dakı administrasiya dəyişikliyi, ABŞ xarici siyasətinin əsaslı şəkildə dəyişməsi, sonra Ukrayna prosesi, daha sonra Suriya prosesi başladı. Səbəblərdən biri də Rusiyanın yeni bir ittifaq modeli qoymasından irəli gəlirdi. Əvvəllər postsovet respublikalarını yaxın xaric adlandırırdılar. Bu da təsadüfi deyildi və o demək idi ki, yaxın xaric Rusiyanın təsir dairəsidir. Amma indiki mərhələdə artıq bu pozulub. Məsələn, deyək ki, Zbiqnev Bjezinskinin "Böyük şahmat lövhəsi" kitabını diqqətlə oxusaq, görərik ki, orada həddən artıq çox Ukraynanın önəmi vurğulanır. Əsas proses də məhz Ukraynadan başladı. Ukraynadan ona görə başlamadı ki, Qərb orada bir dəyişiklik eləmək istədi və sairə. Ukraynada elə bir uğursuz hakimiyyət mövcud idi ki, həmin hakimiyyət bütün resursları öz əlində cəmləmək istəyi ilə bütün oliqarxiyanı özünə qarşı qaldırdı. Kənar müdaxilələr də burdan başladı və proses gəldi bugünkü mərhələyə çatdı. Qafqazlara gəldikdə isə, bura Ukrayna qədər olmasa da Rusiya üçün həyati əhəmiyyət kəsb eləyən bir bölgədir. Ona görə ki, Qafqaz yaxın Şərqə çıxışdır, qlobal məkana çıxışdır, Rusiya üçün böyük bir dəhlizdir. Burada həmin o iki dəhlizin kəsişməsi, toqquşması baş verir. Diqqət edirsinizsə, bünövrədən o "İpək yolu" dediyimiz xətt hər yerdə Rusiyadan kənar keçir. Məhz buna görə də həmin o xətt üzrə də gərginləşmə getdi...



### "22 il status-kvonun davam eləməsi məhz Qərblə Rusiya arasında anlaşma olmasından irəli gəlirdi"

***- Aprel olayları prosesini də qlobal analizin axarındamı dəyərləndirmək istəyirsiniz?***

- Bəli. Birmənalı olaraq...

***- Qərblə Rusiyanın münasibətlərindəki 2008-ci ildən başlayan qırıqlığınmı nəticəsi olaraq baş verib Qarabağda aprel olayları? Onda belə çıxır ki, proseslər Azərbaycanın xeyrinə gedib.***

- Birmənalı olaraq Azərbaycanın xeyrinə gedib...

***- Rusiya və Qərb koordinasiyası olsaydı, belə çıxır ki, status-kvonun dəyişmə şansı yox idi?***

- Bəli. Status-kvo dəyişməyəcəkdi. 22 il status-kvonun davam eləməsi məhz Qərblə Rusiya arasında anlaşma olmasından irəli gəlirdi. Amma artıq o prinsipial məsələlər gündəmə gəldiyindən, maraqların toqquşması baş verdiyindən şübhəsiz ki, bizim üçün də burada yeni fəaliyyət məkanı açıldı. Təsadüfi deyildi ki, Qarabağda-Azərbaycanın işğal olunmuş ərazilərində başlanan hərbi əməliyyat Azərbaycanın və Ermənistanın dövlət başçılarının ABŞ-da Nüvə təhlükəsizliyi sammitində olduğu vaxtda baş verdi...

### "Təsadüfi deyildi ki, Qarabağda - Azərbaycanın işğal olunmuş ərazilərində başlanan hərbi əməliyyat Azərbaycanın və Ermənistanın dövlət başçılarının ABŞ-da Nüvə təhlükəsizliyi sammitində olduğu vaxtda baş verdi"

***- Nə idi bunun anlamı? Bu bir təsadüf yoxsa, müəyyən mesaj idi?***

- Burada heç bir təsadüf yox idi. Sadəcə olaraq, Rusiya indiyəcən birmənalı şəkildə göstərirdi ki, postsovet məkanındakı bütün ölkələr onun nəzarətindədir, bütün tənzimləyici mexanizmlər onun əlindədir və Rusiyasız bu münaqişələri çözmək mümkün deyil. Amma indi göründü ki, bu, heç də belə deyilmiş...

***- Bunun görünməsini istədilər, yoxsa bu, belə deyildi?***

- Bu, belə deyildi. Çoxdan belə deyildi...

***- Amma Rusiya çox böyük iddialı oyunçudur. Görün neçə cəbhədə vuruşur. Krım cəbhəsində Avropa ilə, Suriya cəbhəsində ABŞ-la...***

- Təbii böyük iddialı oyunçudur. Amma Suriya cəbhəsində artıq vuruşmur. Suriya cəbhəsi Rusiyaya Ukraynadan diqqəti yayındırmaq üçün lazım idi...

***- Nail oldumu?***

- Müəyyən qədər nail oldu. Bilirsiniz ki, Ukraynada proses faktiki olaraq səngiyib. Prezident Putin elan elədi ki, Suriyada məqsədə nail oldular. Amma bilmirəm nəyə nail olduqlarından söhbət gedir. Bu gün danışıqlar prosesi də heç Rusiyanın nəzarəti altında aparılmır. Bir günün içərisində atəşkəs elan olunması və iki gün sonra qoşunların oradan çıxarılması ciddi bir pərdəarxası təpkinin nəticəsi idi...

***- Təpkinin tərəfi kimdir?***

- Vaşinqton.

***- Vaşinqton bu partiyanı udmuş sayılırmı, yoxsa burada qalib olan həm Rusiya, həm ABŞ-dır, məğlub olan Suriya xalqıdırmı?***

- Suriya xalqı 50 ildir Əsəd rejimi iş başına gələndən məğlubdur. Bunun fəsadı gec-tez olmalı idi. Hələ Hafiz Əsədin dönəmində də ciddi bir qarşıdurma olub və 30 minə yaxın ordu tərəfindən güllələnib. Mütləq azlığın mütləq çoxluq üzərində hakimiyyəti hər zaman fəsadlara gətirir. Suriya prosesi əslində bir planlaşdırılmış proses deyildi. Bu, daxili bir dinamika idi. Sadəcə xarici qüvvələr bir il gözlədilər, baxdılar ki, insanlar geri çəkilmir, güllə qarşısına gedir, kənar müdaxilələr onda başladı. Bu Suriya xalqının indiyədək yaşadığı faciələrdən daha böyük faciəyə çevrildi. Amma indi sülh prosesi gedir və Rusiya sülh prosesində demək olar ki, yoxdur. Mən istisna eləmirəm ki, yaxın ayların birində Əsəd rejimi, Əsəd ailəsi oradan çıxarılacaq.

***- Hara gedəcək?***

- Yəqin ki, Rusiyaya. Amma bir neçə il keçəcək və Haaqa Hərbi Tribunalı Suriya ilə bağlı tribunal təşkil edəcək və Rusiyanın qarşısına şərt qoyulacaq ki, həmin o hərbi cinayətkarlar təhvil verilsin.

***- Bu zaman Rusiya təhvil verəcəkmi? Rusiya bu cür adamları ilə necə rəftar edir?***

- Rusiya çox rahat şəkildə təhvil verir. Adamlarını müəyyən mərhələdə xərcləyir.

***- Amma Rusiya Ermənistanı xərcləmir. Sanki Qarabağda son toqquşmalar Rusiyanın əlinə bir rıçaq verdi. Azərbaycanla Ermənistan arasında son bir aydakı gərginlikdə Rusiyanın davranışlarını təhlil eləsək nə görünür?***

- Postsovet məkanındakı münaqişə ocaqlarının hamısı bilavasitə Rusiya tərəfindən yaradılıb. Rusiya öz geosiyasi təsir imkanlarını qoruyub saxlamaq üçün bu münaqişə ocaqlarından istifadə edir. Dağlıq Qarabağ münaqişəsi təkcə Azərbaycana deyil, həm də Ermənistana təsir vasitəsidir. Sadəlövhcəsinə düşünmək lazım deyil ki, Ermənistanda Rusiyaya sevgi var. Mən deyərdim ki, bu gün Ermənistan cəmiyyətində Rusiyaya nifrət daha çoxdur, nəinki Azərbaycan cəmiyyətində...

***- Rusiyadan nə gözləyirdilər ki, ala bilmədilər?***

- Ermənilər belə düşünürdülər ki, Ermənistan öz suverenliyinin indiyədək xeyli hissəsindən imtina eləməsinin qarşılığında Rusiya Dağlıq Qarabağ münaqişəsi məsələsində birmənalı şəkildə Ermənistanın tərəfində olacaq, Ermənistanı açıq müdafiə edəcək.

### "Sergey Şoyqunun Bakıya səfəri gizlədildi, rəsmi olaraq üzə çıxmadı. Amma o, Bakıda səfərdə olub"

***- Apreldəki mənzərə necə oldu? Əslində biz Rusiyaya biz qəzəblənməliyik. Çünki Rusiya KİV-ləri Azərbaycanı şərlədi, dezinformasiya yaydı və sair. Pərdə arxasında Ermənistanda nə baş verdi ki, Ermənistan birdən-birə Rusiyaya münasibətdə dönüş yapdı?***

- Birincisi, ona görə ki, belə oldu ki, Ermənistanın cəmiyyət olaraq gözləntiləri özünü doğrultmadı. Onlar daha çox şey umurdular Rusiyadan. Onlar düşünürdülər ki, Rusiya Azərbaycana müasir silahlar satmamalı idi. Onlar düşünürdülər ki, Rusiyaya verdiklərinin müqabilində Rusiya hətta Azərbaycana qoşun da yeridə bilər. Ermənistanda bu cür gözləntilər bir az reallıqdan çox idi...

***- Bəlkə, Ermənistanda məlumat var ki, Rusiya əməliyyatlarda Azərbaycan tərəfinə imkan, limit yaradıb?***

- Yox. Mən bu cür düşünmürəm. Həmin o hərbi əməliyyatlar keçiriləndə yuxarıda xatırlatdım ki, dövlət başçıları ABŞ-da idi. İkincisi, yəqin siz də bunun dəfələrlə şahidi olmusunuz ki, adicə kiçik bir atəşkəs pozuntusu olanda dünyada nə qədər anti-Azərbaycan ritorikası işə düşürdü. Bu dəfə isə belə olmadı. Bu dəfə sanki ABŞ Konqresindəki erməniпərəst konqresmenlər heç yox imiş. Heç birinin də səsini çıxmadı. Heç bir Qərb mətbuatında bir kəlmə də olsun Azərbaycanın ünvanına fikirlər yazılmadı...

***- Bu sizi təəccübləndirdimi?***

- Təəccübləndirmədi.

***- Niyə? Nə məlumatınız var ki, təəccüblənmədiniz?***

- Burada çox sadə bir şey var. Məsələn, İlham Əliyevlə ABŞ dövlət katibi Con Kerrinin Vaşinqtonda görüşü. Bu görüşdən sonra hər ikisi mətbuat qarşısına çıxdılar və Con Kerri dedi ki, Dağlıq Qarabağ münaqişəsi artıq dondurulmuş vəziyyətdə qala bilməz...

***- Və qalmadı.***

- Bəli. Münaqişə dondurulmuş vəziyyətdən çıxdı. Ayrı nəyi deyim sizə? Digər bir məqamı xatırladım. İlham Əliyevin Vaşinqtonda Nüvə Sammitində çıxışı demək olar ki, başdan-ayağa Qarabağ münaqişəsinə həsr olunmuşdu...

***- Düzmü eləmişdi?***

- Hesab edirəm ki, düz eləmişdi. Dağlıq Qarabağ məsələsi Azərbaycan üçün həyati məsələdir. Bir sıra beynəlxalq dairələrdə belə bir fikir yaranmışdı və yaradılmışdı ki, Dağlıq Qarabağ məsələsi guya azərbaycanlılar üçün, Azərbaycan dövləti üçün artıq prioritet deyil. Aprel əməliyyatının ən ciddi uğuru bu stereotipin dağıdılması oldu.

***- Apreldə baş verən silahlı toqquşmalar 22 illik status-kvonu dəyişdimi?***

- Birmənalı olaraq dəyişdi.

***- Bu, sizin düşüncənizə görə uğurdurmu, yoxsa riskdirmi?***

- Uğurdur. Təəssüf ki, insan itkilərimiz oldu...

***- İtkilər var, amma risk daşıyırmı gələcək baxımından?***

- Mən düşünürəm ki, əksinə, bu əməliyyatlar bir neçə mifi dağıtdı. Hətta Rusiyanın özünü ciddi sayan bir sıra eksperti açıqlamalar verirdilər ki, Dağlıq Qarabağın özünümüdafiə qüvvələri az qala dünyada ən nizami silahlı qüvvələrdən biridir. Belə sərsəm ekspert rəyləri verilirdi, mif yaradılırdı. Bunun hamısı bir günün içində darmadağın oldu. Bütün Ermənistan cəmiyyəti qorxu içindədir. Biz gördük ki, Ermənistanda az qala siyasi konyuktura dəyişəcəkdi. Təsadüfi deyildi ki, Rusiya həmin o üç-dörd gündə var gücü ilə həmin əməliyyatı saxlamağa əl atdı. Neçə dəfə müdafiə naziri Azərbaycanın müdafiə nazirinə zəng etdi. Hətta Sergey Şoyqunun Bakıya səfəri gizlədildi, rəsmi olaraq üzə çıxmadı. Amma o, Bakıda səfərdə olub...

***- Hərbi əməliyyatlar olan dövrdə?***

- Bəli.

***- O ranqda adamın gəlib-getməsi gizli qala bilərdimi?***

- Görünür gizli saxlamaq lazım olub ki, saxlanılıb. Amma bizdə olan məlumata görə Şoyqu Bakıda səfərdə olub. Arxasınca xarici işlər naziri Lavrovun, sonra baş nazir Medvedevin səfəri. Biz burada bir şeyi də gördük ki, Rusiyanın özünün bir vahid siyasəti yoxdur. Mən bunu həmişə demişəm ki, Rusiya hakimiyyətində müxtəlif qruplar var. Diqqət yetirin, Medvedev Bakıda dedi ki, status-kvonun qorunub saxlanmasında maraqlıdır. Lavrov isə dedi ki, Azərbaycanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına və Avropa İqtisadi Birliyinə üz olmasını gözləyir...

***- Amma bunu çox nəzakətlə dedilər...***

- Üzdə nəzakətlə deyilib. Düşünürəm ki, görüşlərdə daha başqa şərtlər də qoyulub. Özü də xeyli şərtlər olub. Azərbaycana qarşı 6-7 ağır şərt irəli sürülüb və rədd cavabı alınıb. Bu rədd cavabı aldığından da diqqət yetirin Lavrovun İrəvan səfərindən dərhal sonra ermənilər fəallaşdılar. Deməli, Ermənistanın işğalçı qoşunlarından Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə olunur. Rusiya çalışır vəziyyəti nəzarətə qaytarsın. Ancaq artıq vəziyyət nəzarətdən çıxıb. Hətta artıq Ermənistan nəzarətdən çıxır.

***- Bu regional oyunda Qərb Azərbaycanı dərəcəsindən asılı olmayaraq dəstəkləyirmi?***

- Mən düşünürəm ki, dəstəkləndi və dəstəkləyir.

***- Amma onlar bəyanat verirlər ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həllini görmürlər, hərbi yolu dəstəkləmirlər.***

- Bu, əslində Qərbin ənənəvi yanaşmasıdır. İstənilən münaqişədə bu cür bəyanatlar verilir. Bu, şablon bəyanatdır. Amma digər tərəfdən tutalım ki, biz bilirik Azərbaycana İsrail tərəfindən ciddi hərbi və texniki dəstək olub.

***- İsrailin çıxarı nədir, yalnız puldurmu?***

- Mən belə düşünmürəm. İsrail üçün Azərbaycanın bir tərəfdaş kimi konseptual əhəmiyyəti var.

***- İsrail üçün Azərbaycanın hansı əhəmiyyəti var?***

- ...

*(Davamı gələn sayımızda)*

❑ Hazırladı: Etibar SEYİDAĞA







### "İlham Əliyevlə görüşdən sonra Con Kerri dedi ki, Dağlıq Qarabağ münaqişəsi artıq dondurulmuş vəziyyətdə qala bilməz və qalmadı"

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016



# Tüpür(ül)mək növbəsi kimindir?

Samir SARI

**Ürəyiyuxa camaatıq, eşidəndə ki, kimisə aparıb təcridxanada döyüblər, üzünə tüpürüblər, dərhal mərhəmət damarımız yoğunlayır, deyirik, niyə elə edirlər, bu, qanunsuzluqdur, insan ləyaqətini alçaltmaqdır.**

Hətta savadlı hüquq müdafiəçiləri bu hərəkətin insan haqlarına dair beynəlxalq konvensiyalara zidd olduğunu deyə, sübut edə, hesabat-filan hazırlaya da bilərlər.

Gerçəkdən də şillə-şapalaq, dürtmə-qapaz, yumruq-təpik o tərəfə dursun, təkcə bu üzə tüpürmək məsələsi heç bir konvensiyaya sığan iş deyil.

Bu, mənəvi işgəncə kateqoriyasına girir. Bəlkə də bu, insana, yəni zərərçəkənə ana-bacı, arvad-uşaq söyüşü qədər ağır psixoloji travma yetirə bilər.

Ancaq biləndə ki, təcridxanada babat döyülən, paralel olaraq söyülən, üstəlik, üzünə tüpürülən adam vaxtilə bu sayaq işlərə rəhbərlik etmiş birisidir, onda ürəyiyumşaq camaatımızın bir hissəsinin başı çönür, deyirlər, öz əməlləridir, qarşısına çıxır.

Sırf bu üzdən Naxçıvan MTN-də nazir vəzifəsində işləmiş Vəli Ələsgərovun başına gələn uyğun pəstəhanın pərdəarxası (eləcə də pərdəqabağı) təfərrüatları insanlarda ikimənalı rəy yaradıb.

Keçmiş nazirin vəkili inandırıcı bir şəkildə deyir ki, belə bir hadisə həqiqətən də olub. Əlbəttə, hüquq-mühafizə orqanları çıxıb deyəcəklər ki, belə bir hadisə olmayıb, cinayət qanunvericiliyində şübhəli şəxs qismində saxlanılanların döyülməsi və üzünə tüpürülməsi nəzərdə tutulmayıb, müvafiq iddialar əsassızdır.

Əslində, elədir. Heç bir strukturun daxili nizamnamə və təlimatlarında da qeyd olunmur ki, arada şübhəli şəxsin üzünə tüpürmək olar.

Ona qalsa, Vəli Ələsgərov nazir olanda da onun rəhbərlik etdiyi dövlət orqanından şikayətçi olanlara belə cavab verilirdi, deyilirdi ki, cinayət məsuliyyətinə cəlb olunmuş şəxslərə qarşı hər hansı bir qeyri-qanuni hərəkətə yol verilməmişdir.

Amma hamımız bilirik ki, bizdə də əsəbi "komissar Məsud"lar var və cinayətini boynuna almayan şəxslərlə davranışda əllərini kətilə, masaya, divara çırpmaqları olur. Bəzən, qabağa gedib, kətili müttəhimin belinə, yaxud müttəhimin başını masaya, divara çırpmaq halları da baş verir. Buna ümumi şəkildə profilaktiki iş aparmaq deyirlər. Belə edənlər üzdə olmasa da səmimiləşəndə deyirlər ki, bə nağayraq, özbaşına qoysaq, hansısa cani cinayətini boynuna alarmı, kimisə satarmı.

Yeri getməmişkən deyim ki, bir fransız filmində ("Açın, polisdir") yaşlı komissar gənc komissara tövsiyə verir, deyir, şübhəli şəxs kimi saxlananlar inadkarlıq edəndə onlarla qanunvericilik kitabı ilə danışmaq lazımdır. Adam belə deyir və örnək göstərir, 1000 səhifəlik, 3-4 kiloluq cinayət məcəlləsi kitabını götürüb müttəhimin təpəsinə çırpır. Bu da profilaktikadır, əlbəttə.

Ancaq saxlanılmış şəxsin üzünə tüpürülməsi profilaktik tədbir sayıla bilməz. Bu, hətta gigiyena profilaktikasına zidd hərəkətdir. Hər ağızda yüz cür mikrob, virus var. Tüpürcək yaz yağışı-zad deyil ki...

Vaxtilə nazir işləmiş, general rütbəsi daşımış adamın üzünə tüpürmək isə nəinki mövcud qanunlara, hətta mentalitetimizin yazılmamış qayda-qanunlarına da ziddir. Bir strukturun işçilərinin sıraya durub növbə ilə öz keçmiş rəislərinin üzünə tüpürməsi isə fenomenal hadisədir. Güman ki, növbəni pozan, yaxud da növbədən çıxan olmayıb.

Bu heynədə adamın yadına köhnə haqq-hesablar düşür, yadınızdadırsa, vaxtilə belə bir iş olmuşdu: əri təcridxanada işgəncə ilə öldürülmüş bir gənc qadın Naxçıvanda MTN-in işçisi tərəfindən yoldan çıxarılıb intim əlaqəyə cəlb edilmişdi, sonra onu susması, ərinin ölüm işini qurdalamaması üçün şantaj etmişdilər. Bax, o zaman bu hadisədən xəbər tutanların, bu mövzuda yazılanların oxuyub bilənlərin hamısı tüpürürdü. Əsəbi oxucular şərh yazırdılar: "Tfu onu edənlərin üzünə!"; "Tüpürüm bu şərəfsiz işə qol qoyanların cəmdəyinə" və s.

**Bəlkə də bu həmin tüpürcəkdir, döndü, dolaşdı, gəldi, ünvanına çatdı...**

# Rayon müxalifətçiləri nə edir?

## Müsavat Partiyası sıralarına gələnlər də olub, gedənlər də...

**Hər dəfə seçki sonrası müxalif partiyaların fəaliyyətində passivlik hiss olunur. Hətta partiya sıralarından gedənlər də olur. Hazırda bütün diqqət cəbhə bölgəsində baş verən hadisələrə yönəldiyi üçün Azərbaycanda müxalifət iqtidar ayrılığı sezilmir və hər kəsin diqqəti məhz bu istiqamətə köklənib.**







*Maraqlıdır, hazırda Müsavat Partiyasının rayon təşkilatları hansı işlə məşğuldurlar? Partiyanın fəaliyyətində passivlik varmı?*

**Müsavat Partiyasının Şəki rayon təşkilatının sədri Həbibulla Manaflı** konfransa hazırlaşdıqlarını dedi: "Müsavat Partiyasının Şəki rayon təşkilatı növbəti konfransa hazırlaşır. Obyektiv və subyektiv səbəblər ucbatından mənim sədrlik müddətim xeyli uzandı. Mən indi Müsavat Partiyasında ən stajlı, necə deyərlər əməkli sədr hesab olunuram. Bu məsələnin həll edilməsini konfransın başlıca vəzifələrindən hesab edirəm. Allahın verdiyi ömrümün qalan hissəsini sıravi müsavatçılığın səfasını, cəfasını yaşamaq niyyətindəyəm. Konfransla əlaqədar təftiş işlərinə başlamışıq. Uzun müddət partiya ilə əlaqəsini kəsmiş müsavatçıların hər biri ilə fərdi söhbətlər aparmışıq. Məlum oldu ki, onların bir qismi Müsavat ideologiyasının mahiyyətini, fəlsəfəsini, partiyanın möhtəşəm tarixini bilmirlər. Partiyaya praqmatik maraqlar naminə daxil olublar. Mənim aləmimdə insanlar iki qrupa ayrılır: zəkanın diktəsi ilə fəaliyyət göstərib ülvi ideallar üçün çalışanlar və instinktlərin hökmünə tabe olub dünya nemətləri əldə etməyi özlərinə həyat qayəsinə çevirənlər. Ölkəmizdə yaranan ağır problemlər məhz zəkanın deyil, instinqlərin idarə etdiyi adamların fəaliyyəti sayəsində meydana gəlib. Biz bu qəbildən olan insanlardan ayrılmaq qərarına gəlmişik. Az olsun yaxşı olsun prinsipi. 4 günlük savaşda şəhid olan hərbiçilərimizin dəfnlərində iştirak edib ailələrinin dərdlərinə şərik olmağa çalışdıq".

Müsavat Partiyasının Qazax rayon təşkilatının sədri İlqar Mustafayev qərargahları olmasa belə fəaliyyətlərini yüksək səviyyədə davam etdirdiklərini dedi: "Fəaliyyətimizi müxtəlif istiqamətdə, həm sosial şəbəkələrdə, həm ictimaiyyət arasında davam etdiririk. Rayon sərhəd zonası olduğu üçün təhlükəsizliyə görə hakimiyyət müəyyən tədbirlər keçirməyə imkan vermir. Şəhidlərimizin dəfn mərasimlərində çalışdıq ki, iştirak edək. Müxtəlif qruplarla, xüsusən də gənclərlə iş aparırıq. Bizim rayonda ən böyük problemimiz qərargah problemidir. Bizə qərargah verilməsi ilə bağlı İcra hakimiyyətinə nə qədər müraciət etsək də bunun müsbət bir nəticəsi olmadı. Bu da hakimiyyətin partiyaya qarşı olan birbaşa aqressiv münasibətindən irəli gəlir. Kim istəsə ona ofis verirlər, amma Müsavat Partiyasına yox".

Müsavat Partiyasının Mingəçevir rayon təşkilatının sədri Nurəddin Rüstəmli Müsavat Partiyasının fəaliyyəti üçün hər zaman maneələrin olduğunu dedi: "Siyasi partiyalar üçün xüsusilə də Müsavat Partiyasının fəaliyyəti üçün maneələr həmişə olub. 2013 və 2015-ci il seçkilərindən xeyli itkilərlə çıxmışdıq. Adətən siyasi müxalifətə qoşulanlar 2 qrupa bölünür. İdeya, azad və demokratik cəmiyyət uğrunda təmənnasız vuruşanlar və mövsümü qoşulanlar. Birincilər az olsalar da amalı, istəyi aydın ziyalılar və səmimi mübarizlərdir. İkincilər isə mənfəət, gəlir götürmək istəyənlərdir və bunlar çoxdur. Biri düşünür ki, İsa Qəmbər prezident olacaq və ya Nurəddin Rüstəmli deputat olacaq o da kölgələrində sərinləyəcək və sairə. Əsasən müxalif partiyaların güclənməsi və zəifləməsi həmin o niyyətli adamların hesabına baş verir".

**N.Rüstəmli sayca az olsalar da digər bütün partiyalardan güclü olduqlarını dedi**: "Biz sayca az olsaq da, güclüyük. Bizi güclü edən haqlı, ədalətli və dürüst olmağımızdır. Partiyanı tərk edənlərin sayı yeni üzvlərdən çox olsa da, biz əvvəlki dövrlərdəkindən daha güclüyük. Çünki mənən haqlıyıq. Son seçkidən travma ilə çıxsaq da Azərbaycanın bu gün ki, qayğıları ilə və hakimiyyətin yaratdığı problemlərlə yaşayırıq və fəaliyyət göstəririk. Hətta bu gün ki, halında belə Müsavat Partiyası AXCP, KXCP və digər partiyalardan, hərəkat və təşkilatlardan 4 dəfə böyük və güclüdür".

**Müsavat Partiyasının Masallı rayon təşkilatının sədri Xasay Səfəroğlu**: "Müsavat Partiyası Masallı rayon təşkilatı nizamnamə çərçivəsində fəaliyyətini davam etdirir. Təbii ki, seçki dövründə aktivlik daha yuxarı olur. Son bir ayda isə cəbhədəki vəziyyəti nəzərə alaraq Müsavat Partiyası "Hər şey cəbhə ucun" şüarından çıxış etdi. Hesab edirik ki, doğru olan budur. Mövzu vətən uğrunda mübaribədirsə, siyasi mübarizə, siyasi ambisiya kənara qoyulmalıdır. Müsavat Partiyası hesab edir ki, yalnız bu şəraitdə cəmiyyətin bütün təbəqələrinin, bütün ictimai-siyasi qüvvələrin bütünləşəcəyi şəraitdə qələbə labüd olacaq. Təəssüf ki, mövcud siyasi hakimiyyət belə vəziyyətlərdə qeyri səmimi davranır. Müsavat Partiyası Masallı rayon təşkilatına müraciətlər isə seçki dövrü ilə müqayisədə az olsa da var. İstər rəsmi üzvlük, istərsə də təəssübkeşlik üçün müraciət edənlər var. Bu gün müxalif siyasi partiya üçün əyalətlərdə fəaliyyət göstərmək daha çətindir. Qərargahsız, məhdud imkanlar səviyyəsində olsa da fəaliyyətimizi davam etdirməyə çalışırıq".

**Müsavat Partiyasının sədri Yasəf Ağazadə** də partiyanın fəaliyyətinin davam etdiyini dedi: "Partiyanın fəaliyyətinin müəyyən passivlik nümayiş edilə bilər. Bu da hər seçki sonrası baş verən hadisədir. Hazırda cəbhə bölgəsində baş verənlərlə bağlı hər kəs bir olub, əsas diqqət məhz bu istiqamətə yönəlib".

❑ **Günel MANAFLI**

# Sabiq naziri yenidən istintaqa aparıb döydülər



**Aprelin 29-da Naxçıvan Muxtar Respublikasının(MR) keçmiş milli təhlükəsizlik naziri Vəli Ələsgərovu istintaq təcridxanasına aparıblar. Orada Vəli Ələsgərov döyülüb, təhqir olunub, alçaldılıb. Bu haqda "Yeni Müsavat"a V.Ələsgərovun vəkili Vüqar Xasayev məlumat verib. Vəkil deyib ki, bu haqda məlumat alandan dərhal sonra ombudsmanlıqla əlaqə saxlayıb, Baş Prokurorluğa qanunsuzluq haqda məlumat verib: "Qanunu pozaraq ev dustağı olan Vəli Ələsgərovu aparıb "asarıq, kəsərik" hədələri gəliblər, döyüblər. Deyiblər ki, maddələrini ağırlaşdırıb, həbs qətimkan tədbiri ilə dəyşdirəcəyik. Deyiblər ki, niyə Bakıda mətbuata çıxmısız? Döyüblər, təhqir ediblər".**

Vəkil deyir ki, Vəli Ələsgərov müdafiə hüququ kobud şəkildə pozulmaqda davam edir: "Biz Baş Prokurorluqdan, müraciət etdiyimiz ünvanlardan cavab gözləyirik. Bu qədər qanunsuzluğa "dur" deyilməlidir. Elementar müdafiə hüququnun pozulmasının qarşısı alınmalıdır".

Qeyd edək ki, Vəli Ələsgərov 15 il Naxçıvanın milli təhlükəzilik naziri olub. Həbsindən bir neçə ay əvvəl ona general-leytenant rütbəsi verilib. Eldar Mahmudov milli təhlükəsizlik naziri postundan çıxarılandan sonra onun postuna V.Ələsgərovun namizədliyi müzakirə olunub. Vəkilləri bildiriblər ki, onun barəsində çirkin kampaniya bundan sonra başlanıb, özünü həbs edib yaxınlarının əmlaklarını əllərindən alıblar, 50-yə yaxın qohumu işdən qovulub. V.Ələsgərovun nazirliyi dövründə Naxçıvan MTN öndə gedən repressiv orqan kimi ad çıxarıb, orada ictimai fəallar, jurnalistlərə qarşı zorakılıqlara yol verilib, şantaj olunub, Naxçıvan sakinlərinin bir neçəsi qurumdakı dəhşətli işgəncələrin sonucu olaraq dünyalarını dəyişiblər.

❑ **E.MƏMMƏDƏLİYEV**




# Klunilər niyə Azərbaycana qarşıdır?

## Xədicə İsmayılı müdafiə edən Amal Kluni barədə bilinməyənlər

**Son günlər media caməəsi üçün əsas müzakirə mövzusu heç şübhəsiz ki, müstəqil jurnalist Xədicə İsmayılın azadlığa çıxma ehtimalıdır. Həmkarımızı Avropa Məhkəməsində Amal Kluni adlı vəkilin müdafiə etməsi ilk gündən müzakirə mövzusudur. İlk vaxtlar media onun erməni mənşəli olması barədə bir neçə versiyanın üzərində dayansa da, sonradan X.İsmayılın yerli vəkillərindən və A.Kluni cəbhəsindən gələn təkzib mövzunu nisbətən səngitdi.**

Amma son olaraq Amal Kluninin Hollivud ulduzu olan həyat yoldaşı Corc Kluninin qondarma erməni soyqırımı ilə bağlı layihədə iştirak etmək üçün İrəvana getməsi rəngləri tündləşdirdi. Dünya mediasında da uzun müddət bu xəbər "Klunilər İrəvana gedəcək" şəklində təqdim edilsə də, son olaraq Hollivud aktyoru səfərə həyat yoldaşı olmadan qatıldı. Bununla da Klunilərin "ermənipərəst"liyi ilə bağlı iddialar yenidən alovlandı.

Haqqın.az saytı bu mövzu ilə bağlı təhlil hazırlayıb. Təhlildə qeyd olunub ki, Kluni cütlüyü türk və Azərbaycan xalqına qarşı dərin nifrəti ilə seçilir. Bunun sübutu kimi Corc Kluninin Amalla evlənənə qədər hər hansı siyasi tədbirlərdə iştirak etməməsidir. Sayt yazır ki, hazırda cütlüyün "duet"ində əsas rolu Amalın oynaması da bunun sübutudur. Xanım vəkilin hazırda ən vacib vəzifəsi Azərbaycanın imicini aqressiv erməni boyaları ilə çəkməkdən ibarətdir.

Sözügedən məqalədə eyni zamanda qeyd olunub ki, A.Kluninin kampaniyasına bəzi azərbaycanlı bloggerlər də fəal şəkildə qoşulub. Türkiyədəki erməni qəzeti olan "Aqos"la əməkdaşlıq edən Arzu Abdullayeva, "Azadlıq" radiosu Azərbaycan xidmətinin keçmiş rəhbəri Kənan Əliyev, eləcə də Ələkbər Raufoğlu bunların sırasındadır. Onlar xanım Kluni ilə aktiv şəkildə əməkdaşlıq edirlər. Yazıda vurğulanır: "Xədicə İsmayılovanın işi siyasi layihədir. Orda aktiv rolu Amal Kluni oynayır. Sonuncu Azərbaycan fobiyasını gizlətmir".

"Xədicə İsmayıl Azərbaycana qarşı" adlı iş eyni zamanda ölkənin imicini zədələməyə hesablandığı üçün xanım Kluninin canfəşanlığı da bu məsələdə ciddi faktdır. Çünki hadisələrin ilk günündən bəllidir ki, X.İsmayıl müdafiəsi üçün A.Kluniyə yox, sonuncu jurnalisti müdafiə etmək üçün ona müraciət edib.

**Azərbaycanlı jurnalistlər olaraq təbii ki, həmkarımızın tezliklə azadlığa çıxmasını istəyir və bunun üçün atılan addımları alqışlayırıq. Amma bu prosesi öz məqsədləri üçün istifadə edən ermənipərəst bir vəkilin işdə aktiv iştirakı cəmiyyətin tanınmış üzvlərinə xoş deyil. Bunlardan biri hüquq müdafiəçisi Mətanət Əzizova, digəri isə politoloq Hikmət Hacızadədir. Hər iki tanınmış ictimai xadim bizə açıqlamalarında bununla bağlı neqativ fikirlərini bildiriblər. H.Hacızadə deyib ki, A.Kluni erməni mənşəlidir və əri Corc Kluni də İrəvana getmək üçün kasıb büdcəli Ermənistandan hər hansı maliyyə almayıb. Sadəcə bu, ailə dayanışmasıdır. M.Əzizova isə deyib ki, Xədicənin müdafiəsində vəkillik kralı olmaq vacib deyil:** "Bu iş haqda bir az məlumatı olan vəkil sənədləri rahat hazırlayıb, Avropa məhkəməsinə göndərib Xədicəni müdafiə edə bilər. (Nümunə - Azərbaycan vəkillərinin minlərlə udulan işləri) Amal Kluninin əsas işi gözəl siması ilə Xədicə haqda məlumatın yayılmasıdı. Bunun üçün ayrılan pulla bir neçə QHT bu işi daha effektiv görə bilər. Və sözün qısası, subyektiv, mən istəməzdim Amalın adı Xədicənin adı ilə bir yerdə hallansın. Amal Kluni Xədicənin adını çəkəndə, hansı mesajla olursa olsun, qıcıqlanıram. Xədicənin işini bu xanım mənim aləmimdə kiçiltdi. Bu boyda dünyada ayrı adlı-sanlı vəkil tapılmadı?"

**Hələ məsələ siyasi gündəmə düşdüyü ilk günlərdə vəkil Əsabəli Mustafayevin də maraqlı baxışı var idi. O, bildirmişdi ki, işə Böyük Palatada baxıldığı zaman Avropa Məhkəməsində xarici vəkilə ehtiyac yaranır:** "Çünki o zaman proses şifahi keçirilir. Xədicə xanımın işinə bölmənin palatasında baxıla bilər. Bu işlə isə onun indiki vəkilləri asanlıqla bacarar. Həm də Amalın iştirakını hökumət ayrı istiqamətlərə yozacaq. Mənə elə gəlir ki, Amal bu işi öz reklamı xətrinə götürmək istəyir. Onda qoy öz vəkillərimiz reklam olunsunlar. Amal Avropa Məhkəməsində 2-3 iş aparıbsa, İntiqam Əliyev 200-ə yaxın iş göndərib. Buradan məlum olur ki, kim kimdən öyrənməlidir".

**Bu günlərdə BBC televiziyasına müsahibəsində A.Kluni "erməni soyqırımı" iddiaları ilə bağlı daha öncə apardığı işin Xədicə İsmayılovanı təmsil etməsinə kölgə salacağı barədə narahatlıqlara cavab olaraq deyib:** "Fakt budur ki, mən bütün dünya boyunca jurnalistləri müdafiə edirəm. Bu iş Azərbaycana qarşı deyil, bu iş ifadə azadlığı üçündür. Mən bunu Azərbaycan hökumətinə izah etmişəm. Mediada mənə olan hücumlar oldu ki, mən Ermənistanı təmsil etmişəmsə bu işi necə təmsil edə bilərəm".

**O, etnik olaraq erməni olmadığını deyib və əlavə edib:** "Hətta olsaydım belə, bu, dəxilsizdir. Bir dəfə də bunu dedim: Kambocanı təmsil etmişəm, bu məni kambocalı etmir və yaxud Yunanıstanla bağlı işim mənim yunan olmağım demək deyil. Bu, absurddur".

A.Kluni Türkiyə İşçi Partiyasının lideri Doğu Perinçəyin "erməni soyqırımı" məsələsi ilə bağlı İsveçrə, Ermənistan və Fransa ilə Avropa İnsan Haqları Məhkəməsindəki davasında Ermənistan hökumətinin vəkili və müdafiəçisi məhz A.Kluni olub. Vikipediada yayılanlara görə, vəkil Amal Cloonenin qız soyadı Amaluddun olub və Livandakı druz adlı azsaylı xalqın nümayəndəsidir. O, bir neçə tanınmış insanın, o cümlədən WikiLeaksin yaradıcısı Culian Assanjın, Ukraynanın sabiq baş naziri Yuliya Timoşenkonun və Misir mənşəli Kanada jurnalisti Məhəmməd Fəhminin vəkili olub.

Uşaq yaşlarından valideynləri ilə birgə Beyrutu tərk edib və İngiltərədə yaşayır. Amalın anası Bariya Livan qəzeti "Əl Hayat"da beynəlxalq xəbərlər bölümünün rəhbəri olub. Zamanında Bill Klinton, Fidel Kastro və Toni Blerdən müsahibələr götürüb.

X.İsmayılın vəkili Fariz Namazlı isə daha öncə verdiyi müsahibələrində A.Kluninin erməni olmadığını və həbsdəki jurnalistin onun müdafiəsindən razı olduğunu deyib.

**Bütün hallarda ortada ciddi iddialar və təkzibini gözləyən faktlar var. Hər nə qədər "arvad ərə cavabdeh deyil" arqumenti güclü olsa da, Amal Kluni ilə evlənənə qədər siyasi arenadan maksimum uzaq dayanan Corc Kluninin birdən-birə Ermənistan sevdalısına çevrilməsi, eləcə də xanımının daha öncə ermənipərəst işlərdə müdafiəçi olması şübhələri artırır. Biz həmkarımızın azadlığa çıxmasını istəyirik, amma bunu Ermənistanın xeyrinə çevirənlərin əli ilə yox.**

❑ **S.TELMANQIZI**

# Sabah dünya solçuları bayram edəcək, Azərbaycan isə...

## Ölkədə solçuluğun inkişaf etməməsinin real səbəbləri nələrdir?

**Sabah 1 maydır. Sözügedən tarix 120 ildir dünyanın əksər ölkələrində zəhmətkeşlərin beynəlxalq həmrəylik günü kimi qeyd edilir. Dünyanın 100-dən artıq ölkəsində ictimai bayram kimi, 70-ə yaxın ölkəsində isə dövlət səviyyəsində rəsmi bayram günü olaraq keçirilir.**

Əksər 1 May nümayişləri dinc şəkildə və insidentsiz başa çatsa da, bəzən planlı qarşıdurmalar da yaradılır. Bəzi ölkələrdə bayram günü nümayişə çıxan işçilərin qanı tökülür.

İndiyədək 1 May nümayişlərində 1000-dən çox insan öldürülüb. Xatırlayanlar bilir, Sovet İttifaqında bu bayram dünyada ən möhtəşəm səviyyədə keçirilirdi. Bayramdan bir neçə gün öncə bütün ölkə boyu - idarə, müəssisə və təşkilatlarda, məktəblərdə buna hazırlıq başlanırdı. Mayın 1-də şəhərlərdə böyük nümayişlər keçirilər, möhtəşəm bayram əhval-ruhiyyəsi hökm sürərdi. Peşəsində fərqlənən əməkçilərə mükafatlar, fəxri adlar verilər, Sovet İttifaqının paytaxtına - Moskvaya dünyanın bütün ölkələrindən dəvət olunan qonaqlara sosializmin nəyə qadir olduğu nümayiş etdirilərdi.

1920-ci ildən başlayaraq, 1 may Azərbaycanda da rəsmi bayram günü kimi qeyd olunub. Lakin hələ 1919-cu ildə əməkçilər 1 May bayramı qeyd ediləndə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə ADR hökuməti bu bayramda fəal iştirak edib. Onlar bu bayramın sinfi qarşıdurma yaradan amil kimi qiymətləndirilməsini rədd edirdilər. SSRİ tərkibində olanda 1 May bayramı rəsmi bayram sırasında ən yüksək səviyyədə qeyd olunar və bununla bağlı keçirilən tədbirlərdə, televiziya və mətbuatda insanlara əməyin, zəhmətin nə qədər vacib olduğu aşılanardı.



1992-ci ildə isə bu bayram totalitar quruluşun ideoloji atributu kimi ləğv edildi. Həmin ilin oktyabrında müstəqil Azərbaycanın bayramları haqqında qanun qəbul edilərkən 1 May xeyli dərəcədə ideolojiləşmiş bayram kimi o sıraya daxil edilmədi. Həmin bayramın sinfi ideologiyanı daşıyan şəxslərin təşəbbüsü ilə yaradıldığını əsas gətirdilər. 1992-ci ildə keçmiş prezident Əbülfəz Elçibəyin göstərişi ilə 1 mayın rəsmi səviyyədə qeyd edilməsinə son qoyuldu.

Ölkəmizdə bu tarixi sadəcə, kommunist partiyaların üzvləri kiçik bir yürüşlə qeyd edirlər. Lakin demək olar ki, bütün sosioloqlar, psixoloqlar, müxalifət və iqtidar nümayəndələri də belə bir bayramın yüksək səviyyədə keçirilməsinin vacib olduğunu bildirirlər.

**Tanınmış yazar Azər Rəşidoğlu** isə məqalələrindən birində yazıb ki, Azərbaycanda indi yaranmış vəziyyətdə solçu ideyalar aktuallaşa bilər: "Düzdür, ölkə əhalisinin tam əksəriyyətinin müsəlman olduğunu nəzərə alsaq, kommunist təmayüllü təşkilatların yarana biləcəyi də real görünmür. Bu mərhələdə azad ticarət və biznesə dəstək verən islamçıların daha cəlbedici ola biləcəklərini ehtimal etmək mümkündür: "Bu baxımdan, islamçıların nüfuzunun artması daha realdır. Azərbaycanda 70 il hökm sürən kommunist ağalığı nəticəsində insanlarda solçuluğu təmsil edən təşkilatlara qarşı nifrət yaranıb. Digər tərəfdən, hazırda Azərbaycanda partiyaların hamısı ciddi ideoloji böhran yaşayır. Ölkənin aparıcı sağ partiyaları sol platforma ilə çıxış etməyə başlayıb. Protest elektoratı solçuluq barədə geniş məlumata malik deyil. Lakin yaranmış vəziyyətdə Azərbaycanda solçu ideyaları kifayət qədər populyarlaşdırmaq mümkündür. Yaşlı nəslin sosializm xiffəti elektoral baza toplamağa yardım edə bilərdi. Baxmayaraq ki, bu, baş vermədi, ölkədə müəyyən təbəqə sol ideyalara rəğbət bəsləməyə başlayıb. İnqilab tərəfdarı olan təbəqə də radikal solçuluğa meyl edir. Onlar sosial ədalətin kəskin, sərt yolla bərpa olunmasını istəyirlər. Sağçılardan ümidini kəsən təbəqə radikal sola meyllənməyə başlayıb. Sosial ədalət bərpa olunana qədər solçu ideyalar artan xətlə inkişaf edə bilər".

**Azərbaycanda sol təmayüllü partiyalar isə bir qayda olaraq maddi imkansızlıqdan şikayətlənirlər. Bu da ölkədə solçuluğun inkişafına zərbə vurur.**

❑ **SEVİNC**

**"Dağlıq Qarabağ və hazırda nəzarətimizdə olan torpaqlarla bağlı yanlış təsəvvürlərə qapılmaq gərək deyil. Bu yanlışlıq bizə çox baha başa gələ bilər. Hazırda nəzarətimizdə olan, əlimizə keçirdiyimiz torpaqları nə zamansa azad etməli, oradan çəkilməliyik. Reallığı anlamaq gərəkdir".**
**Milli.az xəbər verir ki, Ermənistan parlamentində səslənən bu açıqlama tək ermənilərin ali qanunverici məclisində yox, cəmiyyətdə və mediada "bomba partlayışı" effekti yaradıb.**

# Ermənistan parlamentində şok etiraf

## Hakim partiyanı təmsil edən vitse-spiker **Ermine Nağdalyan:** "O torpaqlar bizim deyil!"

Dağlıq Qarabağ və Azərbaycanın işğal altında olan digər ərazilərinə ermənilərin heç bir hüququnun olmaması barədə etiraf Ermənistan parlamentinin vitse-spikeri, iqtidarda olan Ermənistan Respublika Partiyasının önəmli funksionerlərindən biri Ermine Nağdalyana məxsusdur.

O, Ermənistanda Seçki Məcəlləsinə əlavələr və dəyişikliklər nəzərdə tutan qanun layihəsinin müzakirə edildiyi iclasda çıxış edərkən belə deyib.

"Dağlıq Qarabağın statusu və gələcəyi ilə bağlı danışıqlar qaçılmazdır. Ona görə referendum keçiriləndə, statsusla bağlı qərar qəbul olanda və dünya birliyinin də qarabağlı ermənilərin dövlət müstəqilliyini tanıması üçün konkret addımlar atmağa başlayanda deməliyik ki, hüququmuz olmayan torpaqları istəmirik. İndi əlimizdə, nəzarətimizdə olan o torpaqlara heç bir hüququmuz yoxdur", - E.Nağdalyan söyləyib.

**Ermənistan parlamentinin vitse-spikeri bu bəyanatının ölkədə, habelə qarabağlı ermənilər və xarici ölkələrdəki erməni diasporunda çox böyük rezonans doğurduğunu anlayanda geri çəkilib, özünə bəraət qazanmağa çalışıb:** "Kütləvi informasiya vasitələrimiz həmişə olduğu kimi sözlərimi təhrif ediblər, olmayanları olan, deyilməyənləri deyilən kimi təqdim ediblər. Mən indiki vəziyyətdən yox, 2010-2011-ci illərdəki situasiyadan, Madrid prinsiplərindən danışmışam. Ölkəmizin rəsmi mövqeyindən fərqlənəcək bir kəlmə də deməmişəm. Artıq neçə ildir ki, biz danışıqları "ərazilər əvəzinə status" variantı əsasında aparırıq. Belədirsə, sözlərimdə qəribə, anlaşılmaz nə olub ki?!"



Ermənilərsə belə düşünmürlər. Ermənistan mediası E.Nağdalyanın çıxışı ilə bağlı xəbərləri "Vitse-spikerdən azərbaycanlılara hədiyyə", "Erməniyə erməni zərbəsi", "Ermənistan Dağlıq Qarabağ ermənilərini hərraca çıxarır?" və s. bu tipli başlıqlarla təqdim ediblər.

Lakin çox təcrübəli siyasətçi, ən başlıcası isə Ermənistan prezidenti Serj Sarkisyana həddən ziyadə sədaqətli şəxs olan E.Nağdalyanın açıqlaması heç bir halda təsadüf sayıla bilməz.

Onun etirafı Dağlıq Qarabağdakı "dördgünlük müharibə"dən sonra Ermənistan rəhbərliyinin məntiqində və mövqelərində dəyişikliklərin qismən nümayiş olunmasıdır.

İrəvanın məntiqi, əslində, məntiqsizlikdir. Belə ki, Ermənistan prezidenti Serj Sarkisyan "indiki situasiyada danışıqlar aparılmasında məntiq görmürəm və Ermənistan bu səbəbdən prosesdən kənara çəkilir" desə də, danışıqların məzmunundan, məntiqindən yox, şərtlərindən danışır.

Şərtlərlə bağlı məsələ həll olunsa, Ermənistana qarşı "sülhə məcburetmə" prosesi başlansa, nə olacaq - Sarkisyan bu barədə ermənilərə açıqlamalar verməkniyətində deyil.

E.Nağdalyanın bəyanatı həm də Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində həll variantı qismində rəsmi İrəvanın "Madrid prinsipləri"nin gerçəkləşməsinə çalışdığını göstərir.

Nədən ki, S.Sarkisyan və Ermənistan nazirləri Dağlıq Qarabağdakı "dördgünlük müharibə"dən sonra danışıqların mümkünsüzlüyünü inadla vurğulayırlar. Əslində, onlar ATƏT-in Minsk Qrupunun və Bakının nəzərinə çatdırmaq istəyirlər ki, "status əvəzinə ərazilər" variantını müzakirə etməyə hazırdırlar: sadəcə, hərbi əməliyyatlardan bir qədər vaxt keçməsini istəyirlər.

Ermənistan habelə, Azərbaycanı yeni müharibə ilə hədələyir, amma özü də yaxşı bilir ki, Dağlıq Qarabağ münaqişəsi zonasında genişmiqyaslı hərbi əməliyyatların başlanması İrəvan üçün fəlakət olardı.

Üstəlik, erməni cəmiyyətində Sarkisyan hakimiyyətindən narazılıq sürəkli artdığından rəsmi İrəvan cəbhə xəttində atışmalar, Azərbaycan kəndlərinin bombalanması yolu ilə hərbi diplomatiya variantını seçdiyini göstərir.

Bu, İrəvanın son vaxtlardakı ən kobud səhvidir: sporadik bəyanatlarla sürəkli atışmalar uyuşmur və Ermənistan hərbçiləri Azərbaycan kəndlərini bombalamağa davam etdikcə münaqişənin danışıqlar yolu ilə nizamlanma variantalarının effektivlik ehtimalı bir o qədər azalır.

Yeni müharibə regional fəlakət olacaq və Ermənistan parlamentinin vitse-spikeri həm Rusiya, həm də Qərbdən təzyiqlərə İrəvanın davam gətirməməsi səbəbindən erməniləri danışıqlara hazırlamağa başlanmasına dəlalət edən ilk mesajı səsləndirib.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlarda dalan situasiyasının yaranmasına az qalıb. Belə vəziyyətdə düşməni ya tammiqyaslı hərbi məğlubiyyətə düçar etmək, ya da problemi siyasi yolla həll etmək gərəkdir.

Hər iki variantın təmərküzləşdiyi istiqamətsə ən yaxşı yoldur.

**Dünya birliyi və xüsusilə də ATƏT-in Minsk qrupu münaqişənin çözülməsində indiyədək heç bir ciddi irəliləyişə nail olmayıb. Minsk qrupunun həmsədrləri az qala ermənilərin ictimai nümayəndələrinə çevrildiklərindən E.Nağdalyanın ilk baxışdan ermənilərçün şok effekti yaratmış bəyanatı reallıqda həmsədr ölkələrin mövqelərinin yoxlanması, zondajı məqsədi güdür. Cəhd alınmadı.**

# "Erməni kimdir ki, biz ondan qorxub, harasa gedək"

## "Bizim alnımıza bu həyatı yaşamaq yazılıb"





**Düşmənin demək olar ki, hər gün müxtəlif növ silahlardan atəşə tutduğu Qapanlı kəndinin sakinləri, son günlər yalnız savaş arzusundadırlar.**

Aprelin 27-dən 28-nə keçən gecə erməni silahlı qüvvələri Tərtərin Qapanlı kəndində sakinlərə məxsus iki evi artilleriya silahından atəşə tutublar. Hər iki evin üzərinə düşən mərmi, tikililəri yararsız hala salıb.





Kənddə olduğumuz zaman söhbət etdiyimiz sakinlər bildirdilər ki, aprel ayında ermənilər əvvəllər avtomat və digər bu kimi silahlardan istifadə edirdilərsə, son zamanlar kənd yalnız artilleriya silahlarından atəşə tutulur. Kənd sakinləri həmçinin qeyd etdilər ki, onlar ordumuza güvənirlər və düşmənin bu kimi təxribatlarından zərrə də olsa çəkinmirlər. Biz kənddə olduğumuz zaman (29 aprel 15:00 radələri - red) düşmən avtomat və pulemyotlardan kəndi ara-sıra atəşə tuturdu. Lakin müşahidə etdik ki, atəş səslərinə baxmayaraq, kənddə həyat öz axarı ilə davam edir, hər kəs işinin başında idi.

Kənd sakini Mahmud Əhmədov musavat.com-a bildirib ki, düşmənin atəşlərinə baxmayaraq, kənddə yaşamlarına davam edirlər: "Ordumuza güvənirik. Məhz buna görə də kəndimizdə oturub, həyətimizdə öz təsərrüfat işlərimizlə məşğul oluruq. Ancaq düşmənin atəşinə görə, sahələrimizə çıxa bilmirik. Artıq bir neçə gündür ermənilər axşam saatlarından səhərə qədər atəşkəsi pozur, yaşayış məntəqələrini atəşə tuturlar".

Qapanlıda bərbər işləyən Zahid Cəfərov da işinin başında idi. Bildirdi ki, atışmaya bir növ artıq öyrəşiblər. Ona görə də düşməndən çəkinmək barəsində söhbət belə gedə bilməz.

Kəndin 84 yaşlı ahıl sakini Əli Əliyev bildirdi ki, son günlər düşmən fəallaşsa da bir addım da olsun, kənddən kənara çıxmağı düşünmür:

"Camaatımız da elə mənim kimi düşünür. Çünki ordumuza güvənirik. Biz onlara arxayın olub burada oturmuşuq. Hər gün düşmən atəşkəsi pozur. Ancaq artıq öyrəşmişik".

Yuxarıda qeyd etdiyimiz kimi düşmənin artilleriya zərbələri nəticəsində Qapanlıda iki evə ciddi zərər dəyib. Həmin evlərdə də olub, hazırkı vəziyyəti ilə tanış olduq. Evinin üstünə mərmi düşən Elbrus Tanrıverdiyev, hadisəni bu cür danışdı: "28 aprel gecə saat 4 radələrində gördük ki, ermənilər kəndi intensiv atəşə tutublar. Biz də həyətimizdə olan hamama girdik ki, həyətə mərmi düşən zaman, qəlpələrdən özümüzü qoruyaq. Az sonra mərmilərdən biri bizim evin üzərinə düşdü. Mərminin partlaması nəticəsində evimizin üstü tamamilə dağılıb, bundan başqa otaqlara da ciddi ziyan dəyib. Eyni zamanda otaqda olan bir çox əşyalarımız da yararsız vəziyyətə düşüb. Düşmən demək olar ki, hər dəfə artilleriya silahlarından kəndə atəş açır. Rayon İcra Hakimiyyətinin nümayəndələri bir neçə dəfə evimizə gələrək, dəyən zərərin miqdarını hesablayıblar. Evimizin üzərini müvəqqəti örtmək üçün xüsusi çadır da veriblər".

Daha sonra düşmənlə təmas xəttinə ən yaxın məsafədə yerləşən və 2 gün öncə mərmi düşən digər evə yollandıq. Mənzilin sahibləri hazırda evdə olmasalar da qonşu Rasim Hüseynovla söhbət etdik. R.Hüseynov bildirdi ki, düşmənlə aralarındakı məsafə 1 kilometrdən də az olmağına baxmayaraq, heç nədən çəkinmirlər: "Heç hara gedəsi fikrimiz yoxdur. Erməni kimdir ki, biz ondan qorxub, harasa gedək. Hər kəs öz işinin başındadır. Heç nədən narahat deyilik. Lakin bu ərazidə, düşmənin atəşi nəticəsində bütün evlərə ziyan dəyib. Qonşunun evinin də üzərinə mərmi düşüb, mənzili tamamilə yararsız hala salıb. Erməninin əlindən başqa heç nə gəlmir. Kənardan durub, dinc sakinləri atəşə tuturlar. Ancaq ordumuz da onlara layiqli cavabı verir. Ona görə də narahat deyilik".

**Onu da qeyd edək ki, Tərtər rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, düşmənin aprelin 27-dən 28-nə keçən gecə atəşi nəticəsində zərər görən 58 yaşayış evinin təmiri ilə bağlı müvafiq sənədləşdirmə işlərinin aparılmasına başlanılıb. Yaxın zamanlarda müvafiq addımlar atılacaq.**

**❑ Əli RAİS,**
**❑ Məhəmməd TÜRKMƏN,**
**❑ Tərtər**

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016

# ABŞ və Rusiya Suriyada atəşkəslə bağlı anlaşdı

**ABŞ və Rusiyada Suriyada atəşkəslə bağlı razılığa gəlib. BBC-nin Rusiya mənbələrinə istinadən verdiyi məlumata görə, Moskva və Vaşinqton Suriyada atəşkəsə riayət olunması üçün tərəflərə təzyiq göstərməklə bağlı anlaşıblar. Razılaşmaya əsasən atəşkəs anlaşma əldə olunan bütün bölgələri, o cümlədən Hələbi də əhatə edəcək.**

## Bu mənzərə əslində Suriyada savaşan tərəflərin böyük güclər olduğunu bir daha təsdiqləyir



Rəsmi Dəməşqin yaydığı açıqlamada atəşkəs aprelin 30-da yerli saatla 01.00-dən etibarən qüvvəyə minəcək. "RİA Novosti" agentliyi Hələb, Laziqiyyə, Dəməşq kimi şəhərləri də əhatə edəcək atəşkəsin əsas təminatçısının Rusiya və ABŞ olacağını yazıb.

Qeyd edək ki, Suriyada savaşan tərəflər arasında atəşkəs fevralda Amerika-Rusiya anlaşması ilə əldə olunmuşdu. Cenevrə danışıqlarının iflic olması ilə toqquşmalar yenidən bərpa olunmuşdu. Xüsusən də Hələb və ətrafında döyüşlər şiddətləndi. Hökumət qüvvələri sürəkli olaraq müxaliflərin nəzarətində olan bölgələri bombalayır. Son bir həftə ərzində hava bombardmanları nəticəsində 123 nəfər dünyasını dəyişib. Müxaliflərin hücumları nəticəsində hökumətin nəzarəti altındakı bölgədə 71 nəfər dünyasını dəyişib.

İndi isə meydana Rusiya və ABŞ daxil olub. Yeri gəlmişkən, iki gün əvvəl BMT-nin Suriya üzrə xüsusi təmsilçisi Stefan de Mistura Rusiya və ABŞ hakimiyyətlərinə müraciət edərək Suriya danışıqlarını xilas etməyə çağırmışdı. Görünür ki, vəziyyətin çıxmaza girməsi Moskva və Vaşinqtonu hərəkətə gətirib. Möhkəm təminat olmasa tərəflərin atəşkəsə riayət edəcəyi mümkün görünmür. Çünki Hazırda Suriyada çoxlu sayda savaşan qruplar var və bu qrupların hər biri bir neçə fərqli ölkənin, kəşfiyyat və ya siyasi təşkilatın təsiri altındadır. Yəni bir tərəfdə danışıb anlaşılacaq vahid bir mərkəz yoxdur. Bu isə anlaşma əldə edilməsini çətinləşdirir. Yeganə çarə daha üst bir güclə anlaşmaqdır. Məlum olduğu kimi, Suriyada hökumət tərəfdən əsas dəstəkçi güc Rusiya, müxaliflər tərəfdə isə Amerikadır.

Yəni yalnız Amerikanın böyük ölçüdə savaşan müxalif güclərə təsir göstərib onları atəşkəsə riayət etməyə məcbur edə bilər. Çünki hazırda savaşan güclərdən çox, onların arxasındakı güclərə təsir etmək vacibdir. Amerikanın isə belə bir imkanı var ki, Türkiyə, Qatar, Səudiyyə Ərəbistanı və digər dəstəkçi ölkələrə təsir imkanı var. Eyni şəkildə Rusiyanın Suriya hökuməti, eləcə də İran, Hizbullah və digər savaşan qruplara birbaşa təsir imkanları var.

Bu mənzərə əslində Suriyada savaşan tərəflərin böyük güclər olduğunu bir daha təsdiqləyir. Sübut olur ki, Suriyada savaşın sonra çatması əslində Rusiya və ABŞ-ın anlaşmasından asılı olacaq. Əgər Moskva və Vaşinqton prinsipial məsələlərdə anlaşa bilsələr, keçid prosesi uğurla həyata keçirilə bilər. Həm Vaşinqtonun müxaliflərə təsir edib optimal atəşkəsə razı salmaq, həm də Moskvanın Bəşər Əsədi hakimiyyət dəyişikliyinə məcbur etmək gücü və imkanları var.

Bu mənada indi sülh üçün Suriyaya deyil, daha çox Vaşinqton və Moskvaya baxmaq lazımdır. Əgər ABŞ-ın indiki hakimiyyəti, yəni Barak Obama səlahiyyət müddəti başa çatana qədər Suriya münaqişəsini həll etməyə çalışsa, hansısa nəticəyə nail olmaq mümkündür, əks halda yeni ABŞ administrasiyasının hansı mövqe tutacağı, sülhə necə yanaşacağı məlum deyil.

❑ **KƏNAN**

## ABŞ-da Donald Trampın tərəfdarları ilə əleyhdarları dava salıb



**Kaliforniya ştatının Kosta Mesa şəhərində ABŞ prezidentliyinə namizədliyə iddialı Donald Trampın tərəfdarları ilə əleyhdarları arasında dava düşüb.**

"Report" "Associated Press"ə istinadən xəbər verir ki, siyasətçi bir neçə min seçici qarşısında çıxış edərkən onun əleyhdarları tədbirin keçirildiyi konfrans salonunun yaxınlığında bir yerə toplanıb. Onlar nəqliyyatın hərəkətini dondurublar. Milyarderin çıxışından sonra onun tərəfdarları küçəyə çıxıb və burada qarşı tərəf onları irqçilikdə ittiham ediblər.

Nümayişçilər polis maşınının arxa şüşəsini qırıb, avtomobilin üzərinə tullanmağa başlayanda hüquq-mühafizə orqanlarının əməkdaşları və atlı polislər kütləni qovamağa başlayıb. Nəticədə 20-dən çox nümayişçi saxlanıb.

Qeyd edək ki, Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizədlik mübarizəsində favorit sayılan Donald Tramp 994 nümayəndənin səsini qazanıb. Namizədliyinin irəli sürülməsini təmin etmək üçün ona 1 237 seçicinin dəstəyi lazımdır.

## Parisdə etiraz yürüşü: 78 polis yaralandı, 214 aksiyaçı saxlanıldı



**Fransanın paytaxtı Parisdə əmək qanunvericiliyində islahata qarşı keçirilən etiraz yürüşündə 78 polis yaralanıb, 214 nümayiş iştirakçısı saxlanılıb. "Report" "France Press"ə istinadən xəbər verir ki, bunu Fransanın daxili işlər naziri Bernar Kaznev bildirib.**

Qeyd edək ki, bir müddət əvvəl 24 polisin yaralandığı, 124 aksiya iştirakçısının saxlanıldığı barədə xəbər yayılmışdı.

Xatırladaq ki, Parislə yanaşı, ölkənin Marsel, Nant, Qavr və başqa şəhərlərində də etiraz yürüşü keçirilib. Hakimiyyət aksiyada 170 min nəfər, Fransa Baş Əmək Konfederasiyası ("CGT") isə aksiyalarda 500 mindən çox insanın iştirak etdiyini bildirib.

## Tacikistanda rus familiyaları rəsmən qadağan edildi

**Tacikistanda "-ov", "-ova", "-oviç", "-ovna" kimi rus sonluğu ilə bitən familiyalar rəsmi şəkildə qadağan olunub.**

Avropa.info xəbər verir ki, bu barədə məlumatı Tacikistanın VVAQ orqanının nümayəndəsi Cəlaləddin Rəhimov məlumat yayıb. O, qeyd edib ki, uşaqları üçün rus familiyalarını saxlamaq istəyən şəxslərlə maarifləndirici iş aparılır. Tacik rəsmi deyib ki, vəziyyət dəyişməsə, 10 ildən sonra tacik uşaqların yarısı milli, digər yarısı ruslaşdırılmış familiya daşıyacaqlar.

Onun sözlərinə görə, bundan sonra doğulan taciklər "zod", "zoda", "y", "iyon", "far" sonluqlu familiyalar daşıyacaq.

Qanuna dəyişiklik ölkə parlamenti tərəfindən hələ yanvar ayında qəbul olunmuşdu. Qanun ancaq tacik əsilli vətəndaşlara əhatə edəcək. Digər etnoslar özlərinə uyğun familiya daşıya bilərlər.

# "Yaxın gələcəkdə Ermənistanı enerji kollapsı gözləyir"

## Rusiyalı analitik Oleq Kuznetsov: "Çünki ölkənin enerji sistemində resurslar ildən-ilə azalır"

**"Yaxın gələcəkdə Ermənistanı enerji kollapsı gözləyir. Çünki ölkənin enerji sistemində resurslar ildən-ilə azalır".**

Bunu "Report"a açıqlamasında rusiyalı siyasi analitik Oleq Kuznetsov "Metsamor" Atom Elektrik Stansiyasının (AES) regiondakı rolu və təhlükəsini şərh edərkən deyib.



"Metsamor" AES Ermənistan iqtisadiyyatında bir çox cəhətdən həlledici və hətta müəyyən mənada aparıcı rola malikdir. Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) qiymətləndirməsinə görə, Ermənistanın enerji tələbatının 35-40%-ni məhz nüvə energetikası ödəyir. Başqa sözlə, hazırda fəaliyyət göstərən "Metsamor" AES-in bir bloku ölkənin enerji istehlakının üçdə birindən çox hissəsini qarşılayır. Burada söhbət təkcə elektrik enerjisindən deyil, həm də istilik enerjisindən gedir", - deyə O.Kuznetsov bildirib.

Onun sözlərinə görə, təhlükəsizlik standartlarına əsasən, AES-in ehtiyat gücü orta enerji istehlakından ən azı 25% çox olmalıdır, amma "Metsamor"la bağlı halda isə bu AES-in payına çox böyük hissə düşür.

Politoloq qeyd edib ki, ona görə də stansiya Ermənistan energetikasının əsas obyektlərindən biridir, sadəcə, onun texniki resursu artıq bitib: "Böyük ölçüdə o, artıq ötən il bitib. Amma layihələndirilmiş "ehtiyat"la bir neçə il keçinmək olar. 10-12 il sonra isə yenidən istifadəyə verilmə ilə bərpa işləri, ya stansiyanın qalıqlarının konservasiyası ilə bağlı planlı bağlanış, ya da Çernobıl və ya Fukusimada olduğu kimi, kiçik nüvə partlayışı olmalıdır".

Ermənistanda yeni AES-in tikintisi üzrə layihənin Rusiya tərəfinin maliyyələşdirməsindən danışan politoloq başqa bir ölkənin iqtisadiyyatına belə böyük investisiya yatırımının həmişə siyasi qərarın nəticəsi olduğunu qeyd edib.

"Təbii ki, birbaşa qonşusu ilə müharibə vəziyyətində olan ölkə iqtisadiyyatına heç kim bu cür irimiqyaslı investisiya yatırmaz. Atom energetikasına kapital yatırımı uzun müddət gözləməyi tələb edir, yalnız 10-15 il sonra mənfəət əldə etməyə başlayırsan. Bu gün heç kim Ermənistanın bir neçə il sonra siyasi gələcəyinin necə olacağını ehtimal edə bilməz, o ki qalmışdı 10-15 ilə. Dağlıq Qarabağdakı vəziyyətdə istənilən radikal dəyişiklik bu və ya digər dərəcədə Ermənistanın təsərrüfatına təsir edəcək. Belədə Ermənistan investisiyaların problemli obyektindən tamamilə əlverişsiz ölkəyə çevriləcək", - deyə O.Kuznetsov bildirib.

Onun sözlərinə görə, bu gün heç kim "Rosatom"un 50 il sonra mənfəət əldə edəcəyinə təminat verə bilməz və əgər təminat yoxdursa, deməli, yeni AES-in tikintisinə investisiya yatırımı barədə danışmaq mənasızdır.

**Ekspert Dağlıq Qarabağ münaqişəsinin nizamlanacağı və Azərbaycanın işğal olunmuş ərazilərinin azad ediləcəyi təqdirdə Azərbaycanın enerji resurslarının Ermənistana çatdırılmasının mümkünlüyünü vurğulayıb:** "İşğal olunmuş torpaqlar dinc yolla qaytarılarsa və Yerevanda siyasi rejim dəyişərsə, Azərbaycanın Ermənistanı güzəştli və bəlkə də demping qiymətlərlə enerjiylə təmin etməsi mümkündür. Amma bu münaqişə növbəti dəfə "dondurulsa", onda Azərbaycanın Ermənistanı enerji blokadasında saxlamağa davam etməsindən başqa çarəsi qalmır. Hazırda rəsmi Yerevan bunu etiraf etsə də, etməsə də, Ermənistanda əsrin üçdə bir hissəsindən artıq müddətdə modernləşdirmə üçün investisiya ayrılmayan enerji sistemi çöküşə doğru gedir. Yumşaq desək, üfüqdə bu ölkəni enerji kollapsı gözləyir".

YENİ MÜSAVAT
N 93 (6414) 30 aprel 2016

# Güllələnən şəxsin vəkili ədliyyə nazirinə müraciət etdi

## Ceyhun Yusifov: "Elgiz İsmayılov heç bir əsas göstərmədən Fuad Əsgərovla görüşə icazə vermir"

**Barəsində 4 ay həbs-qəti imkan tədbiri seçilmiş Fuad Fərahim oğlu Əsgərova vəkil Ceyhun Yusifovla görüşməyə icazə vermirlər. C.Yusifov deyir ki, Badamdar qəsəbəsindəki "Bulaq" restoranında baş verən insident zamanı 4 güllə yarası alan müvəkkili əsassız olaraq həbs olunandan sonra Prnitensiar Xidmətin müalicə müəssisəsinə yerləşdirilib.**



Vəkil deyir ki, Bakı Şəhər Prokurorluğunun istintaq qrupunun rəhbəri ona görüş üçün məktub verib. Lakin Müalicə Müəssisəsinin rəhbərliyi ona müvəkkili ilə görüşmək üçün şərait yatarmır: "Penitensiar Xidmətin müalicə müəssisəsinin rəisi Elgiz İsmayılov heç bir əsas göstərmədən Fuad Əsgərovla görüşə icazə vermir. Bununla bağlı Penitensiar Xidmətin qaynar xəttinə, rejim şöbəsinə, Ədliyyə Nazirliyinin qaynar xəttinə dəfələrlə yazılı, şifahi məlumat vermişəm. Şəxsən gedib görüşə şərait yaradılması üçün müraciətlər etmişəm. Amma 4 gündür ki, görüşə imkan vermirlər. Bu müdafiəçi kimi mənim hüquqlarımın pozulmasıdır. Eyni zamanda Fuad Əsgərovun vəziyyətinin hansı durumda olmasını bilmirik. Görüşə imkan verilməməsinin məqsədini başa düşə bilmirəm".

**Vəkil ədliyyə naziri Fikrət Məmmədova** müraciət edərək müvəkkili ilə görüşə şərait yaradılmasını xahiş edib: "Hörmətli nazir! Ümumiyyətlə, bir çox işlərdə bu cür manealərlə mütəmadi rastlaşırıq. Müdafiə etdiyim şəxsə təqdim olunmuşam. Bir çox istintaq hərəkətləri mənim iştirakımla aparılıb. Həbs-qətimkan tədbiri iştirakımla baş tutub. Müəssisə rəisi vəzifə səlahiyyətlərindən sui-istifadə edir, müdafiə hüququnun gerçəkləşdirilməsinin qarşısını alır. Xahiş edirəm qanunsuzluğun qarşısının alınması üçün göstəriş verəsiniz".

**Yada salaq ki, olay aprelin 20-də Səbail rayonunun Badamdar qəsəbəsində yerləşən "Bulaq" restoranında baş verib. Hadisə zamanı Fuad Əkbərov və Bəhruz Rəfiyev tapançadan açılan atəş nəticəsində yaralanıb, 30 yaşlı Süleyman Abdullayev isə bıçaqlanıb. Hər iki yaralı Bakıdakı özəl xəstəxanalardan birinə yerləşdirilib. Hüquq mühafizə orqanlarına olay haqda BŞ-ın Bakıdakı səfirinin müavini Derek Hoqan məlumat verib. Açılan atəşlərdən biri səfir müavinin istifadəsində olan maşınına dəyib. Polis və prokurorluq orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində paytaxt sakinləri Tofiq Qaramizadə, Hüseyn Hüseynov və B.Rəfiyev tutulub. Faktla bağlı Bakı şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd) və 221.2.1-ci (xuliqanlıq, bir qrup şəxs tərəfindən və ya təkrar törədildikdə) maddələri ilə cinayət işi başlanıb.**

❑ **E.HÜSEYNOV**




## "Avtovağzal" stansiyasının liftini qırdılar

**Bakı Metropoliteni yeni açılmış "Avtovağzal" stansiyasında fiziki qüsurlu insanlar üçün nəzərdə tutulan liftin sındırılmasına aydınlıq gətirib.**

**Qurumun mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev** AzVision.az-a bildirib ki, həmin lift sağlamlıq imkanları məhdud olan insanlar üçün nəzərdə tutulsa da, digər şəxslər də ondan istifadə ediblər.

QSC rəsmisinin sözlərinə görə, metrostansiyanın açılışından iki gün sonra liftə sərnişinlər tərəfindən ziyan vurulub.

"Liftin giriş qapısına sərnişinlər güc tətbiq edərək mexanizmi sındırıblar. Artıq lift təmir olunub".

Nəsimi Paşayev onu da bildirib ki, hadisə stansiyanın çölündə olduğuna görə, hazırda araşdırma aparılır. Həmin şəxslərin kimliyi ilə bağlı məlumatlar toplanır.

Qeyd edək ki, aprelin 19-da Bakı Metropoliteninin yeni-bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi-2" stansiyalarının açılışı baş tutub. "Avtovağzal" stansiyasının 8 giriş-çıxışı var. Burada 20 eskalator və 8 travelator, həmçinin fiziki imkanları məhdud insanlar üçün lift də quraşdırılıb.



## Bakıda ayı peyda oldu

**Aprelin 29-da Zığ qəsəbəsi, Hövsan yolunun üstündə yerləşən "Bakubus"ın avtomobil parkı yaxınlığında ayı peyda olub. ANS PRESS-ə daxil olan məlumata görə, ayının həmin ərazidə peyda olması oradan keçən vətəndaşların təəccüb və təşvişinə səbəb olub.**

Ayının haradan gəlməsi məlum deyil. Hadisə ilə bağlı Fövqəladə Hallar Nazirliyinə məlumat verilib.

"Hamımız gözləyirik ki, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları gəlsin, ayıya iynə vursunlar və ya başqa hansısa yolla onu ərazidən uzaqlaşdırsınlar. Nə piyadalar, nə də maşınlar həmin istiqamətdə hərəkət edə bilmirlər. Ayının birdən peyda olması, hamını qorxudub", - deyə hazırda hadisə yerində olanlardan biri bildirib.

"Baku Bus" və Fövqəladə Hallar Nazirliyindən məlumatı təsdiqləyiblər. Onun bala ayı olduğu qeyd edilib.

Əraziyə gələn FHN əməkdaşlarını ayını tutublar.

## Sabirabad sakini özünü güllələdi

**Sabirabad rayonunda intihar hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Sabirabad rayonunun Bulduğ kənd sakini, 1983-cü il təvəllüdlü Məhərrəmov Ruhid Hafiz oğlu ötən gecə ov tüfəngi ilə başına açaraq intihar edib. İntiharın hansı səbəbdən baş verdiyi məlum deyil.**

Faktla bağlı Sabirabad rayon prokuroluğunda araşdırma aparılır.

## Salyan sakini cərəyan vurması nəticəsində öldü

**Salyan sakini evində elektrik cərəyanı vurması nəticəsində ölüb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) rəsmi saytı məlumat yayıb. Məlumata görə, aprelin 28-də Salyan rayonunun Pratmangənəli kəndində yaşayan Yaqut Kazımovanı evində elektrik cərəyanı vurub və o, hadisə yerində ölüb.**

Faktla bağlı araşdırma aparılır.

## Bakıda 82 yaşlı qadın intihar edib

**Bakıda 82 yaşlı qadın intihar edib. "Report"un xəbərinə görə, hadisə Nəsimi rayonu, Hüseyn Seyidzadə küçəsi ev 1 A ünvanında qeydə alınıb. Orada kirayədə yaşayan 1934-cü il təvəllüdlü Tamara Əlibəyova mətbəx bıçağı ilə sol biləyini kəsərək intihar edib.**

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci *(özünü öldürmə həddinə çatdırma)* maddəsi ilə cinayət işi başlanılıb.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



### Elan

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Telefon: (050) 264 49 99**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel: (051) 634-40-01.**


### Başsağlığı

**"Jurnalistlər Ekstremal Şəraitdə" ictimai birliyinin sədri Firuzə Əsədullayeva və birliyin kollektivi Sərdar Cəlaloğluna və Qurban Məmmədova qardaşları**
**Əbdülün**
**vəfatından kdərələndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyəti Aytən xanıma əmisi**
**Nüsrət Xasayevin**
**vəfatından kdərələndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

***

**Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyəti Novella Cəfəroğlu və cəmiyyətin bütün kollektivi Sərdar Cəlaloğluna və Qurban Məmmədova qardaşları**
**Əbdülün**
**vəfatından kdərələndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

**Aprelin 29-da Bakı Ağır Cinayətlər Məhkəməsində I Avropa Oyunlarının "Atletlər kəndi"nin nəqliyyat deposunda Avstriya yığmasının atletlərini avtobusla vurmaqda təqsirləndirilən sürücü Vəli Əhmədov, həmçinin Nəqliyyat Nazirliyinin (NN) Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin şöbə rəisi Hüseyn Salamov, "Təhlükəsiz şəhər" kamerasının operatoru Elçin Həsənov və NN-in Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin Sərnişindaşıma Departamentinin məsləhətçisi Fərid Əmiraslanovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

# "Atletlər kəndi"ndən avtobus qəzası ilə bağlı məhkəmə keçirildi

## Təqsirləndirilən keçmiş polis: "17 saniyəlik görüntü çəkdim..."



Lent.az-ın məlumatına görə, hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilənlərdən Fərid Əmiraslanov ifadə verib. O, ifadəsində 2006-cı ildən Bakı Sərnişin Nəqliyyat İdarəsində çalışdığını deyib: "2014-cü ildə bizə tapşırıq verildi ki, ölkəmizdə keçiriləcək Avropa Oyunları ilə bağlı xidmət edəcək sürücülərin siyahısını hazırlayaq. Sərnişin daşıyan şirkətlər öz sürücülərinin siyahısını bizə təqdim elədilər. Onların bəziləri yazılı şəkildə, bəziləri "flaşkart"la, bəziləri də elektron poçt vasitəsilə anket məlumatları təhvil verdilər. Mən bunların hamısını elektronlaşdırıb, kompüterimdə cəmləşdirdim. Həmin siyahını idarəyə göndərdim. İdarə onu hüquq-mühafizə orqanlarına göndərib, yoxlatdırdı. Gələn siyahıda 286 sürücünün adı çıxarılmışdı. Onların içində hazırda təqsirləndirilən Vəli Əhmədov da var idi. Yanvar ayında həmin siyahıda adları olan sürücüləri təlimə göndərdik. Bizə tapşırıq gəldi ki, ikinci dəfə sürücülərə ehtiyac duyulacaq. Daşıyıcı şirkətlərə müraciət etdik. Yenidən siyahı göndərdilər. İkinci siyahıda isə artıq Vəli Əhmədovun adı çıxarılmamışdı. Mənim ixtiyarım yoxdur ki, kiminsə adını əlavə edim və ya özbaşıma çıxarım. Vəzifəm məsləhətçidir. İndiyə qədər niyə vəzifə səhlənkarlığında təqsirləndirildiyimi anlamıram. Oyunlar zamanı gecə-gündüz işləmişəm. Bunu ümumi Azərbaycanın xeyrinə etdik. Hər zaman işimdə məsuliyyətli olmuşam. Kompüter biliklərim var. İşimi hər zaman ən yaxşı şəkildə görmüşəm".

**Bundan sonra, polis əməkdaşı, "Təhlükəsiz şəhər" kamerasının operatoru Elçin Həsənov** ifadə verib. O, ifadəsində bildirib ki, 2007-ci ildən DİN-də çalışır: "Nizami rayon Polis İdarəsində "Təhlükəsizlik şəhər" kameralarına nəzarət edirdim. Bizim xidməti otağa hamı girib çıxa bilirdi. Həmin otaqda 3 nəfər işləyirdik. Bir gün işdə, iki gün evdə. Oyunlar yaxınlaşan zaman 3 nəfər də əlavə işçi götürdülər. Həmin vaxtlar işə iki-iki çıxdıq. Otağımıza çox adam girib-çıxırdı, bəzən adi vətəndaşlar da daxil olub kamera görüntülərini götürürdü. Hadisə günü işə gəlirdim. Yolum Sabunçu körpüsü istiqamətindən keçib. Saat 9-da işə çata bilmədim. Hadisə isə saat 8:21-də baş verib. Saat 9:30 işə çatdım. Otaqda iş yoldaşım Emin Axundovla oturmuşduq. Kameralara nəzarət edirdim. Bu vaxt idarədən zəng elədilər ki, "Atletlər Kəndi"ndə yol-nəqliyyat hadisəsi baş verib. Otağa 15-17 polis əməkdaşı girdi. Videonu hamımız izlədik. İzləyəndə gördük ki, avtobus atletləri vurub. İş yoldaşım Eminin telefonu ilə 17 saniyəlik video çəkiliş etdim. Eminə dedim ki, onu "blutuz" vasitəsi ilə mənə göndərsin. Göndərdi. Otaqdan siqaret çəkməyə çıxdım. Aşağıda İdarənin müvəqqəti saxlama təcridxanasının rəisi Məzahir Əsgərov da var idi. O dedi ki, həmin sürücünü artıq bura gətirmişik. Xahiş etdi ki, hadisəyə bir özü də baxsın. Dedim otağa qayıdım, gələrsən göstərərəm. Nəsə elə oldu ki, videonu ona göndərdim. Həmin günün sonlarına yaxın rəis müavini mənə dedi ki, video məxfiləşdirilməlidir. Özü də tapşırdı ki, kimdə görüntü varsa tez silsinlər. Mən də həmin zaman özümdə olan videonu sildim, Məzahirə də dedim ki, o da silsin. Rəis dedi ki, narahat olma silmişəm. Səhəri gün istirahət edirdim. Rəis zəng eləyib, tez bir zamanda idarəyə gəlməyimi tapşırdı. Dedim yəqin hər hansı bir hadisə olub və ona görə çağırırlar. Çünki indiyə qədər çox sayda bağlı qalan cinayət işlərini açmışam. 70-ə qədər bağlı və tapılmayan yol nəqliyyat hadisələrini, qətl və davaları kamera müşahidəmlə aşkara çıxarmışam. Buna görə də, dəfələrlə mükafatlandırılmışam. İdarəyə çatdım, rəis dedi ki, video yayılıb. Mən dedim bir Məzahirə göndərmişəm, o da silib. Məzahirin yanına getdim, o dedi ki, Nemət Mirzəyev adlı polis var bunu ona da göndərib. Rəis məni də, Məzahiri də danladı. Hadisədən bir müddət sonra məni Bakı şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov qəbul elədi. Hadisəni ona nəql elədim. Üstündən bir neçə gün keçəndən sonra məni cənab nazir Ramil Usubov və müavin Vilayət Eyvazov qəbul elədi. Onlara da eyni şeyləri danışdım. Həmin günü idarə rəisinin müavini mənə dedi ki, narahat olma sənlik bir şey yoxdur, bir neçə sənəd var, onlara qol çək. Mən də çəkdim. Yayılan görüntülər də mənim telefonla çəkdiyim videolar deyildi. Yayılan görüntülər kompüter vasitəsi ilə götürülmüşdü. 8 ildir bu işin içindəyəm. Telefon və yaxud kompüter vasitəsi çəkilən videonu tanıyıram. Mənə dedilər ki, sizi bir illik işdən çıxarırıq. Sonra yenidən qaytaracağıq. Qol çəkdirdilər. Hadisədən 2 ay 28 gün sonra Ağır Cinayətlər üzrə İstintaq İdarəsinə çağırıldım. Müstəntiqə ifadə verdim. Mənə sənədləri göstərdi ki, bunlara qol çəkmisən. Ona izah etdim ki, mənə çək dedilər, çəkdim. Orda məni həbs elədilər".

**Məhkəmə prosesində şahid qismində Nəqliyyat Nazirliyinin Nəqliyyat Hərəkətinin Təhlükəsizlik şöbəsinin rəisi Kazım Şərifov və Dövlət Avtomobil Nəqliyyat Xidmətinin rəis müavini Yaqub Novruzov ifadə verib. Onlar təqsirləndirilənlərdən yalnız Hüseyn Salamovu tanıdıqlarını deyiblər. Şahidlər istintaqa verdiklərini ifadələri təsdiqləyib. Məhkəmə prosesi mayın 6-da davam edəcək.**

# "Ölüm kolbasası" hazırlayan sexin rəhbərliyindən reaksiya gəldi




## "Delikates" firmasının satış müdiri Telman Həsənov: "Bizim sexin çölünə baxıb, içinə qiymət vermək doğru yanaşma deyil"

**"Yeni Müsavat"ın 29 aprel 2016-cı il tarixli sayında "Bakıda ölüm hazırlayan" gizli sexlər-şok fotofaktlar" başlıqlı yazı dərc edilib. Yazıda Keşlə qəsəbəsindəki Mikayıl Əliyev küçəsində kiçik bir məkanda fəaliyyət göstərən "Delikates" adlı kolbasa sexindən söhbət gedir.**







Yazıda sexin Keşlədəki qum zavodunun yanında fəaliyyət göstərdiyi, heç bir gigiyenik qaydalara riayət olunmadığı qeyd edilib. Həmin yazıdan sitat: ""Delikates" firmasının "Doktorskaya", "Lyubitelskaya" və sairə növ kolbasa və sosislərinin saxtaları hazırlanır, elə yaxınlıqda yerləşən ara məhəllələrdəki mağazalara da satılır. Sexin cəmi bir havalandırma yeri var. Həmin yerdən üfunət iyli qara tüstü çıxırdı. Paslanmış pəncərə tüstünün təsiri ilə bir az da qaralmışdı. Sex işçiləri əllərində kürəyə oxşar əşya ilə aparatların içindəki "əti" qarışdırır, arabir avadanlıqlara baxırdılar. Sexin içərisindən gələn üfunət qoxusu bir tərəfə qalsın, antisanitar şərait də göz qabağında idi. Köhnə avadanlıqlar, balaca daxma, üstəgəl qum zavodunun həyətində olması və belə şəraitdə kustar üsulla kolbasa hazırlanması cinayətə bərabər əməldir. Əgər "sertifikatımız var" deyən sex rəhbərinə inansaq, bu sənədi verənlər də həmin cinayətə ortaqdırlar..."

Yazı dərc edildikdən sonra **sexin satış müdiri Telman Həsənov** redaksiyamıza gələrək yazılanların əsassız olduğunu bildirdi: "Bizdə standartlar var və kolbasaların qiyməti də o standartlara görə dəyişir. 2-3 manata satılan kolbasa bizim sexdə yoxdur. Kolbasa hazırlanmasında istifadə etdiyimiz ətləri dövlət gətirir, biz əti Bakı şəhər Baş Soyuducu Mərkəzindən kilosu 4 manat 70 qəpiyə alırıq. Bizim sexin hər bir sertifikatı var. Bizim kolbasaların içərisində kardon ola bilməz. Bunu el arasında deyirlər ki, kolbasalara kardon vurulur. Əgər bir kolbasaya kardon vurulsa, bu özünü o dəqiqə göstərər. Kolbasaya nə vurulursa, bunun hamısı gömrük nəzarətindən və Baş Laboratoriya İdarəsindən keçən sənədləşmiş halda olan məmulatlardır. O sənədləri göstərə də bilərəm. Biz kolbasaya vurulan dadlandırıcıları fəaliyyətləri tam qanuni olan insanlardan alırıq. Bu insanlar malı Baş Soyuducu Mərkəzinə gətirib boşaldır. Biz də pulumuzu kassaya keçirib, həmin məmulatları alırıq. Oradan qeyri-qanuni heç nə almaq olmaz. Burada kolbasaya aid nə varsa - istər mal-qoyun əti olsun, istər donuz əti, piyi, istərsə də ədviyyatlar - hamısını sahibkarlar gətirir və gömrükdən keçir. Bizim özümüz də bunları gətiririk. Biz 2-3 aydır ki, fəaliyyət göstəririk. İndi modern soyuducular qurulur. Döşəmə betonlanıb, mənfi temperatur alınıb. Mən belə izah etməklə olmur, gəlib yerində baxan şəxs bunu gözü ilə də görə bilər".

**Qəzetdə çəkilmiş şəkillərə aydınlıq gətirən T.Həsənov bu şəkillərin sexin arxa tərəfi olduğunu və gigiyenik qaydalara tam əməl etdiklərini bildirdi**: "Qəzetdə gedən şəkillər sexin arxa tərəfi, çölüdür. Buranın gigiyenik qaydasının sexin içərisinə heç bir aidiyyəti yoxdur. Qiyməti sexin içərisinə baxıb vermək lazımdır. Bizə gigiyenik sertifikat da verilib. Sertifikatsız işləmək mümkün deyil. Qanunla fəaliyyət göstərən hər bir sex baytarlıq rəyi olmadan ət almır. Çünki bunun bizim özümüzə ziyanı olar. Sabah kimsə belə hərəkət etsə, onu həbs edərlər və bunun cərəməsinin də altından çıxmaq olmaz. Kolbasa bişirən avadanlıqlar xarici ölkələrdən gətirilir. Bəzən də bunlar kapital təmirdən çıxan avadanlıqlar olur. Bizim sexdə işlətdiyimiz təzə avadanlıqlardır və sahibkarlardan almışıq. "Xatman" deyilən alman firmasının məhsullarıdır. Yazıda qeyd edilib ki, sex işçiləri əllərində belə oxşar əşya ilə aparatların içindəki əti qarışdırırdı. Bu, düzgün deyil. 3 min dərəcədə fırlanan bir avadanlığın içərisindəki əti belə oxşar əşya ilə qarışdırmaq olarmı?! Əti texnika özü qarışdırır. Gəlin texnoloji prosesə baxın. Yazıda qeyd olunur ki, sex qum zavodunun həyətindədir. Amma bu, doğru məlumat deyil. Qum zavodu sexin arxa tərəfində yerləşir və hazırda işləmir. Biz sexi açmadan əvvəl müəyyən instansiyalardan gəlib baxıblar. Sabah kimsə kolbasadan zəhərlənsə, biz bunda bir başa məsuliyyət daşıyırıq. Ona görə də bütün bunları özümüz diqqətdə saxlamışıq. Bizim sexin istehsal etdiyi ən ucuz kolbasanın qiyməti 4 manat 70 qəpik, ən bahalısının qiyməti isə 6 manat 80 qəpikdir. Bizim kolbasamızın istehsal prosesinə baxıb laboratoriyaya da verə bilərsiniz. Mən hətta alıcılara deyirəm ki, rus kolbasası alıb yeməyin. Gedin yerli kolbasaları alın. Onlar hamısından yaxşıdır. Özüm də evdə bu kolbasalardan yeyirəm. Mən satışa nəzarət edirəm. Bizim əməkdaşlar əmək müqaviləsi ilə işləyir və normal maaş alırlar. Kolbasa sexinə çöldən baxıb içərisinə qiymət vermək olmaz".

❑ **Günel MANAFLI**

# YENİ MÜSAVAT

## Son səhifə

N 93 (6414) 30 aprel 2016




## Gecə 2-yə qədər mütləq yatın

Həkimlər xəstəliklə mübarizə aparmaq üçün saat 23:00 ilə 02:00 arasında yatmağı vacib sayır. Qrip virusunun ətrafı bürüdüyü bu günlərdə, mütəxəssislərdən tez-tez sağlam qidalanma və gigiyena qaydalarına diqqət yetirilməsi lazım olduğu barədə fikirlər eşidirik. Melatonin ifraz olunan saatları qaçırmamaq lazımdır. Melatonin hormonu xüsusilə gecə 11-dən sonra ifraz olunmağa başlayır və gecə 2-yə qədər davam edir. Səhərə doğru isə yavaş-yavaş azalır. Ona görə xüsusilə bu saatlardakı yuxunu qaçırmaq olmaz. Təbii melatonin hormonunun ən çox qaranlıqda ifraz olunduğunu unutmamaq lazımdır. Bu səbəblə yatdığınız yerin qaranlıq olması, gecə lampasından istifadə edilməməsi çox vacibdir. Ehtiyac duyulan yuxu saatı insandan-insana dəyişir. Kimi 8 saatlıq yuxuyla özünü gümrah hiss edər, kimi isə 6 saatlıq yuxu ilə kifayətlənər. Buna görə mütəxəssislər insanın, gecə orta hesabla 7 saat yatmasını məsləhət görür. 6 saatdan az yatan insanlarda ürək xəstəliklərinə daha çox rast gəlinir. Gündüz yuxularının çox əhəmiyyəti yoxdur. Əhəmiyyətli və lazımlı olan gecə 11-dən sonra yatmaqdır. Ancaq sağlam və keyfiyyətli yuxu üçün qaranlıq mühit şərtdir. Televizora baxaraq yatmaq isə orqanizm üçün son dərəcə ziyandır.

## Narkotikdən qurtuldu, bütün bədənini tatuirovka etdirdi

Avstraliya sakini bütün bədənini tatuirovka ilə örtüb. O, bunu narkotik alverçiliyindən əl çəkəndən sonra edib. "Daily Mail" qəzeti xəbər verir ki, Con Kenni 6 yaşı olanda evdən qaçıb. Kişinin sözlərinə görə, evdə ona qarşı qəddarlıq tətbiq etdikləri üçün küçədə yaşamağa qərar verib. 10 yaşına çatanda isə avstraliyalı narkotik alverinə başlayıb. Bir neçə il sonra isə sutenyor fəaliyyəti göstərməyə başlayıb və qadağan olunmuş preparatlar qəbul edib. Amma kişinin hansı üsulla narkotik asılılığından müalicə olunması barədə xəbər verilmir. Con ilk tatuirovkasını 18 yaşında etdirib. 60 yaşa çatanda isə Kenninin dili, burnu da daxil olmaqla bədənində tatuirovkasız heç bir bölgə qalmayıb: "Mən bu günə qədər törətdiyim cinayətlərə görə özümü bağışlaya bilmirəm. Psixoloq deyir ki, mən məhz bu tatuirovkalarla özümü cəzalandırıram, amma bu, çox xoşuma gəlir".



## Dərsini hazırlamadığı üçün 6 gün itkin düşdü



Şanxayın 12 yaşlı sakini düz 5 gün evlərinə getməyib. Buna səbəb sonuncunun ev tapşırıqlarını etməməsi olub. Polis uşağı İKEA mağazında tapıb. Uşaq bildirib ki, bu günlər ərzində ancaq supermarketlərdə reklam məqsədilə müştərilərə təqdim edilən təamlarla qidalanıb. Nəticədə uşaq zəif düşüb və xəstəxanaya göndərilib. İtməzdən bir neçə saat əvvəl uşağın riyaziyyat müəlliməsi anasına zəng edərək ev tapşırıqlarını etmədiyi üçün ona evə göndərdiyini deyib. Uşaq itəndən sonra ailəsi polisə müraciət edib. Bir neçə günlük axtarışdan sonra polis valideynlərindən uşağın getməyi sevdiyi məkanların siyahısını istəyib. Onların arasında şəhər parkı, iri ticarət mərkəzi və İKEA mağazası olub. Polislər sözügedən məkanları gizli kameranın köməyi ilə izləyiblər. Uşağı İKEA mağazasının çıxışında aşkarlayan polisin onu yaxalaması gec olub. Belə ki, 12 yaşlı yeniyetmə düz 40 dəqiqə müddətində polisdən gizlənə bilib. Onun bu 6 gün müddətində harda olması bəlli deyil. Amma itkin düşdüyü ikinci gün uşağı Şanxayın cənubundakı vağzalda görüblər.



## Ölən dostlarının külündən balığa yem düzəltdilər

İngiltərənin "Teleqraf" qəzetinin xəbərinə görə, 64 yaşındakı Ronni Hopperin başına faciəvi hadisə gəlib. O, dostları ilə birgə tətilə getməyi planlaşdırsa da, xərçəng xəstəliyinə tutularaq dünyasını dəyişib. Amma ölmədən öncə yazdığı vəsiyyətə uyğun olaraq, bədəni yandırılıb. Hopper ölümündən əvvəl dostlarına vəsiyyət edib ki, küllərini özəl bir balıq yemi ilə qarışdıraraq ondan balıq tutulmasında istifadə etsinlər. Mərhumun dostları, 65 yaşındakı Fairbass və Dale Tayland tətilləri zamanı dostlarının vəsiyyətinə əməl edərək yanlarında götürdükləri külləri balıq yemində istifadə ediblər. Nəticədə isə 72 kilo ağırlığında bir syam sazanı tutublar.

Fairbrass insanı təəccübləndirən bu hadisənin detallarını belə danışıb: "Ronun bizimlə səfərə gəlməyəcəyi ciddi xəyal qırıqlığı yaratdı. Çünki bizimlə keçirəcəyi bir tətili çox arzulayırdı. Amma o balığı ovlayanda yanımızda idi. Gölün ən böyük balıqlarından birini Ronun sayəsində tutmağımız da bir tale, acı alın yazısı kimi görünür".

## Qoroskop




QOÇ - Günün birinci yarısında mübahisəli situasiyalara cəlb olunma ehtimalınız böyükdür. Odur ki, hər xırda məsələyə ciddi reaksiya verməyin. Nahardan sonra maraqlı görüşləriniz gözlənilir.

BUĞA - İşinizlə bağlı xeyli yeniliklərin şahidi olacaqsınız. Ürəyinizcə olan təkliflər alacağınıza da şübhə etməyin. Axşama doğru isə müəyyən təxribatlarla baş-başa qalma ehtimalınız var.

ƏKİZLƏR - Olduqca əlverişli gündür. Yeni və perspektivli sövdələşmələrdə iştirakınızdan tutmuş maliyyə məsələlərinə qədər ulduzlar yardımçınız olacaq. Ona görə də boş oturmamalısınız.

XƏRÇƏNG - Ümumi məziyyətlərinə görə gərgin gün hesab etmək olar. Bu səbəbdən də bütün enerjinizi təmkinli olmağa yönəltməlisiniz. Əsəbinizlə oynayan adamlarla üz-üzə gəlməməyə çalışın.

ŞİR - Sevgi münasibətlərində mövcud olan müəmma və anlaşılmazlıqları yoluna qoymaq üçün şanslı vaxtdır. Bu fürsəti fövtə verməyin. Amma işlə bağlı riskli sövdələşmələrdən uzaq olun.

QIZ - Fəaliyyət sahəsində uğurlara yaxınlaşdığınızı bəyan edən Göy qübbəsi aktivliyinizi artırmağı məsləhət görür. Ailə-sevgi və digər münasibətlərdə də vəziyyət xeyrinizə olacaq.

TƏRƏZİ - Ulduzlar əsas vaxtınızı maliyyə istiqamətində xərcləməyinizi məsləhət görür. Hər hansı əyləncə və ya səfərlər uğurdan xəbər vermir. Bu şansdan yararlansanız, büdcəniz artacaq.

ƏQRƏB - Ümumi sıxıntılarınız qlobal planlarınızın gerçəkləşməsinə mane olur. Yaxşı şeylər düşünün. Çünki insan fikri gələcəyi formalaşdırır. Pula görə kiminləsə düşmənçilik yaratmayın.

OXATAN - Bəri başdan sürprizlərə hazır olun. Oturaq işlərə aludə olmaqdansa, fəallığınızı artırın. Bəxtinizdə qazanc da var. Nahar ərəfəsində cinayət tərkibli və dinə zidd addımlardan yayının.

OĞLAQ - Bir qədər darıxdırıcı olsa da, daxili sabitliyinizi qorumaqla müəyyən rahatlıq tapa bilərsiniz. Ciddi qərarlar qəbul etməyinizə lüzum yoxdur. Axşam qonaq getməyiniz yaxşı olar.

SUTÖKƏN - Qərarlarınızda qətiyyətli olsanız, müvəffəqiyyətə yaxınlaşacaqsınız. Mənfi enerjili Ayın bürcünüzdə olmasını da unutmayın. Bədxah adamları həqiqət və reallıqla məğlub edin.

BALIQLAR - Saat 15-ə qədər hansısa uğurlu cəhdlərə nail olacağınızı düşünməyin. Göstərilən müddətdə yalnız istirahətə fikir verin. Yalan vədlər vermək, əsassız danışmaq zərərinizədir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Əsəbisənsə arıqlaya bilməyəcəksən...



ABŞ-da olan Milli Yaşlanma İnstitutunun 1988 adam üzərində 50 il müddətində icra etdiyi araşdırma nəticəsində təsdiqlənib ki, insanın xarakterinin onun bədən ölçülərinə, daha dəqiq desək, artıq çəki almasına təsir edir. Araşdırma zamanı 14.521 iştirakçının dürüstlük, vicdan, açıq fikirlilik, məmnuniyyət, əsəbilik kimi 30 ayrı xüsusiyyəti araşdırılıb. İnstinktləri ilə hərəkət etməyə daha uyğun olanların, instinktlərini yatıra bilənlərlə müqayisədə ideal kilolarına nisbətlə 10 kq artıq çəki aldığı üzə çıxıb. Amma məmnuniyyət nisbəti aşağı, rəqabətçi, əsəbi və ictimai dəyərlərə çox əhəmiyyət verməyənlərin isə bədən kütlə indekslərinin lazım olandan çox olduğu müəyyən edilib. Əsəbi insanlar həyatları boyunca çəki vermə balanssızlıqları yaşayır və sonunda çəki almağa daha meylli olurlar. Araşdırma nəticəsində mütəxəssislər, bunun müalicəsində yeni-yeni üsullar tətbiq edilə biləcəyini söyləyiblər.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750